

"Bütün bunlar Azərbaycanın diplomatik sahədəki uğurlarıdır"

9

Səs

№ 064 (6505) 14 aprel 2022-ci il. Qiyməti 60 qəpik

# Uğurlu və dinamik inkişaf ili: 2022-ci ildə ölkəmiz daha da inkişaf edəcək!

2



Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. Dövlətimizin başçısı proqram xarakterli nitqində beynəlxalq aləmdəki vəziyyət, xarici siyasətimizin gündəliyində olan məsələlər, ötən il əldə edilən nailiyyətlər və görülən işlər barədə əhatəli danışaraq qarşıda duran vəzifələri müəyyən etdi.

9



# Ermənistan seçim qarşısında!

Bu vaxta qədər Ermənistanın hansısa bir mövqedə qaldığının kimsə şahidi olmayıb və bu işğalçı ölkənin hər zaman ikibaşlı oyunlar oynadığı hər kəsə bəllidir. Bir tərəfdən Qərbə, digər tərəfdən isə Rusiyaya meyil edən ermənilər hər zaman özləri üçün bir arxa, dayaq axtarışında olublar. Bu işğalçı ölkənin məqsədi ianələr almaq və işğalçılıq siyasətinin kimlərsə tərəfindən dəstəkləndiyinə əmin olmaq olub, amma rəsmi İrəvan hansı tərəfdən dəstək ala biləcəyini hələ də təyin edə bilməyib.

## "Ermənistanın xarici işlər naziri ilə söhbət konstruktiv olub"

6



Ermənistanın xarici işlər naziri ilə söhbət konstruktiv olub. SİA-nın məlumatına görə, bunu xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərin suallarını cavablandırarkən deyib. "Hər kəsə məlumdur ki, Azərbaycan həmişə Ermənistanla münasibətlərin normallaşmasının tərəfdarı olub", - deyə nazir bildirib.

## Tikinti materialları bazarı "Od tutub yanır"!



## Qida zəhərlənməsi nədir və necə qorunaq?



11

Qida zəhərlənməsi mikroorqanizmlər və ya bakterial toksinlər tərəfindən xarab olan qidaların istehlakı nəticəsində baş verir. Qida zəhərlənməsi üçün tipik simptomlar mədə ağrısı, ishal və qusmadır.

6



## "Aprel müşavirəsi həm də post-müharibə dövrünün bir illik hesabatı idi"

"Aprel müşavirəsi təkcə 2022-ci ilin üç ayının yekunlarına həsr edilmiş müşavirə deyil, həm də...

## "II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq"

*Aprelin 13-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının və Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq" mövzusunda tədbir keçirilib. Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi...*

5





## Koronavirusun yeni ştammı: pandemiya sona yetməyib

13

*Artıq iki ildən çoxdur ki, COVID-19 pandemiyası ilə bərabər yaşayırıq. Bütün dünya ölkələri bu pandemiyanın nə vaxt ...*



## "Bavariya" büdrədi, "Real" yarımfinalda!

16

Futbol üzrə UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinin cavab görüşlərinə start verilib. İlk oyunda 3:1 hesablı qələbə qazanan...

## Rəsmi sənədlər

Prezident İlham Əliyev Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Taleh Tahir oğlu Kazımov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilsin.

* * *

Prezident İlham Əliyev Rauf Hacıyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Q.O.Qurbanovun ”Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Qurban Osman oğlu Qurbanov ”Şöhrət” ordeni ilə təltif edilib.



# Uğurlu və dinamik inkişaf ili: 2022-ci ildə ölkəmiz daha da inkişaf edəcək!

## *İlham Əliyev: "Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik"*

***Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. Dövlətimizin başçısı proqram xarakterli nitqində beynəlxalq aləmdəki vəziyyət, xarici siyasətimizin gündəliyində olan məsələlər, ötən il əldə edilən nailiyyətlər və görülən işlər barədə əhatəli danışaraq qarşıda duran vəzifələri müəyyən etdi.***

### “BU İLİN ÜÇ AYINDA ÖLKƏMİZ BÜTÜN SAHƏLƏRDƏ UĞURLA İNKİŞAF EDİB”

”Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə deyib. Keçən ilin ölkəmizin həyatında çox əlamətdar bir il olduğunu deyən dövlət başçısı vurğulayıb ki, müharibədən sonra birinci il olmuşdur: ”Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır”.

### “BİZ BÜTÜN BU NAİLİYYƏTLƏRİ ÖZ ZƏHMƏTİMİZ HESABINA QAZANMIŞIQ”

Prezident İlham Əliyev müşavirədə əldə olunan bütün nailiyyətləri heç kimdən bir manat belə dəstək almadan öz zəhmətimiz hesabına həll edildiyini vurğulayıb: ”Biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik”.

Dövlət başçısı bu inkişafa ən inkişaf etmiş ölkələrin belə nail ola bilmədiyini vurğulayıb: ”Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, - Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, - donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi”.

”Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra”,-deyən dövlət başçısı bildirib ki, hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər: ”Mənim yadımdadır, işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur ”Bayraktar” dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur.”

### “AĞDAM VƏ FÜZULİ ŞƏHƏRLƏRİNİN BAŞ PLANLARI ƏSASINDA İŞLƏRƏ START VERİLİB”

”Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam”,-deyən Azərbaycan Prezidenti bildirib ki, digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır: ”Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik”.

### “İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BU İL BEŞ STANSİYA ”AZƏRENERJİ” TƏRƏFİNDƏN BƏRPA EDİLƏCƏK”

Prezidenit İlham Əliyev keçirilən müşavirədə azad edilmiş ərazilərdə görülən işlərdən danışaraq bildirib ki, bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək: ”Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilmişdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları orada qalıbdır. Xüsusilə Kəlbəcər, Laçın rayonlarında olarkən bunu hər kəs görə bilər”.

”Biz keçən il bu stansiyaların bərpasına başlamışıq. Bu il beş stansiya ”Azərenerji” tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq”,-deyən dövlət başçısı sahibkarların bu işdə köməklik etmələrini bildirdi: ”Qalan stansiyaların bərpası və ondan sonra işlənməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar. Çünki əlbəttə, dövlət də bu işi öz üzərinə götürə bilər, ancaq dövlətin digər başqa xərcləri çoxdur - bu, birincisi. İkincisi, bu, sahibkarlar üçün də əlverişli investisiya ola bilər. Nəzərə alsaq ki, azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətləri ilə birləşdirilib, ona görə orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcək. Mən hesab edirəm ki, sahibkarlar üçün bu, çox cəlbedici ola bilər”.

### “XUDAFƏRİN” VƏ ”QIZ QALASI” SU ELEKTRİK STANSİYALARININ TİKİNTİSİ İLƏ BAĞLI İŞLƏR SÜRƏTLƏNDİRİLMƏLİDİR”

Dövlət başçısı müşavirədə keçən il azad edilmiş torpaqlarda elektrik yarımstansiyasının inşa edilməsi ilə də bağlı məlumat verdi: ”Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir. Bu, çox böyük göstəricidir. Eyni zamanda, ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi - Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında biz bunu bacardıq. ”Azərenerji”nin mütəxəssisləri yüksək qiymətə layiqdirlər”.

Dövlətimizin başçısı deyib: ”Bu il ”Xudafərin” və ”Qız qalası” Su Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və hesab edirəm ki, daha da sürətlə aparılmalıdır ki, biz tezliklə burada da razılığa gələk. Çünki bu stansiyaların potensialı çox böyükdür - 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra bunun yarısı bizə çatacaq. Beləliklə, biz bu imkanlardan da istifadə edə bilərik. ”bp” şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir. Ümid edirəm ki, yaxın gələcəkdə bir nəticə də olacaq. Hesab edirəm ki, bu stansiyanın çox böyük potensialı olacaq”.

### “ZƏNGƏZUR DƏHLİZİ AÇILMALIDIR”

”Zəngəzur dəhlizi açılmalıdır”,-deyən Prezident İlham Əliyev bildirib ki, Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır: ”İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır.

Ardı Səh. 3

# Uğurlu və dinamik inkişaf ili: 2022-ci ildə ölkəmiz daha da inkişaf edəcək!

## İlham Əliyev: "Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik"

Əvvəli-Səh-4

Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq". Dövlət başçısı, həm də onu da bildirib ki, 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır: "Yəni, biz sürətlə gedirik. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir".

### "BİZ QARABAĞI DA, ZƏNGƏZURU DA NÜMUNƏVİ BİR BÖLGƏ KİMİ QURACAĞIQ"

"Biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar",-deyən Prezident İlham Əliyev bildirib ki, investisiya proqramımızı tərtib edərkən yerlərdən gələn təkliflərə üstünlük verilir: "Ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir".

### "AZƏRBAYCANIN BÖYÜK DAĞI OLAN FƏRRUX DAĞI BU GÜN BİZİM NƏZARƏTİMİZDƏDİR"

"Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyüründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni, böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır". Bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib. Dövlətimizin başçısı qeyd edib ki, Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var.

### "BUNDAN SONRA ORDU QURUCULUĞUNA NƏ QƏDƏR PUL LAZIMDIRSA, O QƏDƏR DƏ AYIRACAĞIQ"

Ordu quruculuğuna diqqətin həmişə olduğunu deyərək bildirib ki, biz öz hesabımıza yaşayan ölkə kimi bundan sonra ordu quruculuğuna nə qədər pul lazımdırsa, o qədər də ayıracağıq: "Müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə bərabər, biz həmişə olduğu kimi hərbi sahəyə də fikir vermişik. Bildirməliyəm ki, müharibədən sonra Türkiyə və İsrail şirkətləri ilə yeni, böyük kontraktlar imzalandı. Bəzi kontraktların icrası başlanmışdır, bəzi kontraktların icrası başa çatmışdır, bəzilərinin isə icrası davam edir. Müharibənin 44 gününün hər günü dərindən təhlil edildi və əlbəttə, bu təhlil bizə imkan verdi ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təşkil edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılmışdır, struktur dəyişiklikləri edilmişdir və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcək. Müharibədən sonra yeni qoşun növü - Komando növü yaradılmışdır və Hadrutda birinci Komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu, çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda artıq bu qoşun növü istənilən vəzifəni icra edə bilər. Biz isə sadəcə olaraq, komandoların sayını ildən-ilə artıracağıq. Hesab edirəm ki, onların sayı ilə bağlı məlumat vermək yersizdir, ancaq hər kəs bilməlidir ki, minlərlə tam hazırlıqlı döyüşçü artıq hazırlanıb və hazırlanacaq".

"Bununla paralel olaraq, İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayı artırıldı və artırılacaq. Hərbi məsələlərin həlli üçün nə qədər vəsait lazımdırsa, o qədər də vəsait ayrılacaq və ayrılır",-deyən Ali Baş Komandan Ermənistanda isə tam bu, fərqli olduğunu deyib: "Ermənistanda xaricdən nə qədər maliyyə yardımı, yaxud da qaytarılmayan kreditlər ayrılarsa, onlar o qədər də xərcləyə bilərlər. Bu məsələyə də mən aydınlıq gətirmək istəyirəm. Hesab edirəm ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistanın silahlanmasına son qoyulmalıdır. Ermənistanın özünün silah almağa pulu yoxdur, heç vaxt da olmayıb. İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Sual olunur: Kasıb ölkədə bu qədər pul haradandır? Bu kreditlər haradandır? Bu kreditlərin sonra pulu qaytarılıbmı, qaytarılmayıbmı? Yoxsa silinib? Əgər o kreditlər verilməsəydi, mən tam əminəm ki, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Ermənistan özü gəlib boynunu büküb razılığa gələrdi, necə ki, kapitulyasiya aktını imzaladı, bütün şərtlərimizi qəbul etdi və müharibədən sonra da necə deyərlər, tam başqa mövqe sərgiləyir".

### "BİZ HEÇ VAXT ERMƏNİ VƏHŞİLİYİNİ UNUTMAMALIYIQ"

"Biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə giriş nitqində deyib. "Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq",- deyən dövlət başçısı bildirib ki, əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək: "Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır".

### "DÜNYANIN APARICI BEYNƏLXALQ TƏŞKİLATLARI YENİ REALLIQLARI QƏBUL EDİBLƏR"

"Postmünaqişə dövrünün nəticələri, birinci ilin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir",- deyən dövlət başçısı bildirib ki, biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər: "İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur. Əlbəttə ki, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdır. Ancaq Qarabağ münaqişəsinin həlli, Azərbaycan tərəfindən birtərəfli həlli, eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu. Şuşa şəhərində bu tədbirin, bir daha demək istəyirəm ki, xüsusi əhəmiyyəti var idi və təsadüfi deyil ki, Ermənistanda bu, növbəti panikaya, isterikaya səbəb olmuşdur".

### "AVROPA İTTİFAQI POSTMÜNAQİŞƏ DÖVRÜNÜN REALLIQLARINI QƏBUL EDİB"

Prezident İlham Əliyev onu bildirib ki, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir: "Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında üçtərəfli görüşlər keçirilmişdir. Görüşlər haqqında məlumat verilmişdir, bu məsələ ilə əlaqədar çox da danışmaq istəmirəm. Ancaq, əlbəttə ki, həm ekspertlər, həm Azərbaycan ictimaiyyəti gördülər ki, yekun kommunikedə "Dağlıq Qarabağ" adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz etmişdir və "münaqişə" sözü də yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub. İndi isə Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə - 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilmişdir".

"Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir",- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, Ermənistan 5 prinsipi qəbul etməli idi: "Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupları yaradılsın. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında hesab edirəm ki, yaxın tarixdə, bəlkə də son 30 il ərzində birinci dəfə telefon söhbəti də olmuşdur. Biz bunu da müsbət qiymətləndiririk. Çünki iki ölkə arasındakı münasibətləri iki ölkə həll etməlidir. Buna köməklik göstərmək istəyənlər kömək göstərməlidirlər. Mən bunu belə görürəm, bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq işçi qruplar, eyni zamanda, sülh müqaviləsinin hazırlanmasına dair işçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq".

### "GƏLƏCƏYƏ BAXDIQDA, MƏN TAM ƏMİNƏM Kİ, AZƏRBAYCAN DAHA DA GÜCLƏNƏCƏK"

Bəli, bugünkü uğurlar bunu bir daha təsdiqləyir. Dövlət başçısı keçirilən müşavirədə də bir daha bildirib ki, Azərbaycan bundan sonra daha da güclənəcək və xalqımız bunun şahidi olacaqlar: "Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək".

**RƏFİQƏ KAMALQIZI**

# Dünyanın nüfuzlu KİV-ləri Prezident İlham Əliyevin bu ilin birinci rübünə həsr olunan müşavirədəki çıxışını geniş işıqlandırılıb




**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

Belə ki, İHA xəbər agentliyi Prezident İlham Əliyevin müşavirədəki çıxışından geniş hissələri videomaterial olaraq yayımlayıb.







Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanla normallaşma prosesinə dair mühüm mesajlarına diqqətlə yanaşan "CNN Türk" telekanalı, "Yeni akıt", "Hurriyet", "Star" qəzetləri və sair media quruluşları dövlətimizin başçısının çıxışındakı fikir və mülahizələri geniş ictimaiyyətə təqdim edib. Diqqətə çatdırılıb ki, Ermənistan hakimiyyəti Azərbaycanın sülh təkliflərinə cavab verib. Prezident İlham Əliyev müşavirədə bildirib ki, bölgədə sülhə meyilliliyin təməlində Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı parlaq qələbə dayanır. Azərbaycan bundan sonra da güclənməkdə davam edib regional liderliyini qoruyacaqdır.

Bundan başqa, Moldova mətbuatı da Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə haqqında məqalələr dərc edib.

Nüfuzlu "NOİ" xəbər portalında Prezident İlham Əliyevin müşavirədə Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanmasına, regionda əməkdaşlıq perspektivlərinə dair fikirlərinə geniş yer ayırıb. Məqalədə dövlətimizin başçısının çıxışına istinadla qeyd olunub ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ermənistanın təqribən 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv edib: "Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Sual olunur: Kasıb ölkədə bu qədər pul haradandır? Bu kreditlər haradandır? Bu kreditlərin sonra pulu qaytarılıbmı, qaytarılmayıbmı? Yoxsa silinib? Əgər o kreditlər verilməsəydi, mən tam əminəm ki, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Ermənistan özü gəlib boynunu büküb razılığa gələrdi, necə ki, kapitulyasiya aktını imzaladı, bütün şərtlərimizi qəbul etdi və müharibədən sonra da necə deyərlər, tam başqa mövqe sergiləyir. Ona görə əgər yenidən Ermənistanın silahlanmasına pul ayrılacaqsa, biz bunu qeyri-dost addım kimi qiymətləndirəcəyik və öz addımlarımızı buna uyğun şəkildə atacağıq".

Dərc olunan digər bir məqalədə isə Prezident İlham Əliyevin çıxışı ilə bağlı qeyd edilir: "Ermənistanın 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək".

Prezident İlham Əliyevin bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə söylədiyi fikirlər Gürcüstan mətbuatının da diqqət mərkəzində olub.

Belə ki, Gürcüstanın aparıcı "24news.ge", "aktual.ge" və "interpress.ge" portallarında Prezident İlham Əliyevin Azərbaycanın regiondakı rolu, həyata keçirdiyi layihələr, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən tikinti-quruculuq işləri barədə söylədiyi fikirlərdən materiallar yayımlanıb.







Azərbaycan, ingilis və gürcü dillərində yayımlanan xəbərlərdə Azərbaycan Prezidentinin Qarabağ və Zəngəzurun nümunəvi bölgə kimi qurulacağı, Fərrux dağının Azərbaycanın nəzarəti altında olması, "Bayraktar"ın indi ölüm silahı deyil, mələk adlandırılması, Zəngilan aeroportunun bu il istifadəyə veriləcəyi barədə fikirləri oxucuların diqqətinə çatdırılıb.

Bunlardan başqa, İranın dövlət informasiya agentliyi olan İRNA Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin birinci rübünün yekunlarına həsr olunan iclasdakı çıxışına diqqət ayırıb.

Agentliyin yazısında qeyd olunur ki, Prezident İlham Əliyev İran ilə birlikdə Araz çayı üzərində "Qız qalası" və "Xudafərin" su elektrik stansiyalarının tikintisinin sürətləndirilməsinin zəruri olduğunu bildirib. Qeyd olunub ki, bu stansiyalar hər iki dövlətin iqtisadi inkişafı üçün faydalıdır. Prezident, həmçinin nəzərə çatdırıb ki, işğaldan azad olunan Cəbrayıl rayonunda günəş elektrik stansiyasının tikintisi ilə bağlı BP şirkəti ilə danışıqlar aparılır və yaxın vaxtlarda nəticə əldə ediləcək. Bu stansiyanın potensialı yüksək olacaq.

Nəzərə çatdırılıb ki, Prezident İlham Əliyev İran ərazisindən keçməklə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək kommunikasiya xətlərinin və yolların tikintisi üçün hazırlıq işlərinin aparıldığını bildirib.

Materialda 1990-cı illərdə Ermənistanın təcavüzü nəticəsində blokada şəraitində qalan Naxçıvana qaz verməsi və muxtar respublika əhalisinə göstərdiyi köməyə görə İrana təşəkkür də əks olunub. Həmçinin vurğulanıb ki, Azərbaycan Prezidenti Qərbi ikili standartlar siyasəti yürütməkdə ittiham edib. Qeyd edib ki, Qərb Ukraynanın ərazi bütövlüyünə həssaslıqla yanaşır. Lakin Ermənistan tərəfindən təcavüzə məruz qalan Azərbaycana qarşı biganəlik göstərir.

# “II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq”

## YAP Mərkəzi Aparatında bu mövzuda tədbir keçirilib

***Aprelin 13-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının və Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "II Qarabağ müharibəsi və beynəlxalq humanitar hüquq" mövzusunda tədbir keçirilib. Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, Ermənistan ölkəmizə və xalqımıza qarşı beynəlxalq cinayətlər törədib. Bu cinayətlər cəzasız qalmamalı, beynəlxalq birlik bu məsələdə ədalətli mövqe nümayiş etdirməlidir.

Tədbirdə Milli Məclisin deputatı, hüquq elmləri doktoru Nizami Səfərov mövzu ilə əlaqədar məruzə ilə çıxış edib. O bildirib ki, işğalçılığı dövlət siyasətinin əsas prioritetinə çevirən, Azərbaycan xalqına qarşı müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, etnik təmizləmələr törədən Ermənistan nümayişkaranə şəkildə beynəlxalq humanitar hüquq normalarını kobud formada pozub. N.Səfərov qeyd edib ki, beynəlxalq humanitar hüquq müvafiq beynəlxalq konvensiyalarla tənzimlənir, burada Cenevrə konvensiyaları önəmli rol oynayır. Həmin sənədlərə əsasən ölkələrin silahlı münaqişələr dövründə üzərinə götürdükləri öhdəliklər var. Müharibələr zamanı tərəflər mülki əhali və mülki obyektlər ilə legitim hərbi hədəfləri fərqləndirməlidir. Amma Ermənistan bu öhdəliklərə əməl etməyib. Belə ki, 30 ilə yaxın işğalçı siyasəti dövründə, o cümlədən II Qarabağ müharibəsində Ermənistan çoxsaylı müharibə cinayətləri törədib.





”Ermənilər müharibə dövründə qadağan olunmuş silahlardan istifadə edib, əsir və girovlara qeyri-insani münasibət göstərib, 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində yaşayış məntəqələrini, tarixi, dini, mədəni abidələri, qəbiristanlıqları, bütün infrastrukturu məhv ediblər. Bu cür hərəkətlər beynəlxalq humanitar hüququn ciddi pozuntusu olaraq, müharibə cinayətləri kimi qiymətləndirilir. Erməni silahlı qüvvələri beynəlxalq hüququn imperativ normalarını pozaraq, bəşəriyyət tarixində nadir hallarda rast gəlinən cinayətlər törədiblər. Bu cinayətlər sırasında Xocalı soyqırımı xüsusi olaraq qeyd edilməlidir. 1992-ci il fevralın 26-da Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alınaraq, yerlə-yeksan edilib, dinc əhali xüsusi qəddarlıqla kütləvi şəkildə qətlə yetirilib”,-deyən N.Səfərovun sözlərinə görə, dövlətimiz bu cinayətlərin cəzasız qalmaması üçün müvafiq addımlar atır.





Deputat təəssüflə qeyd edib ki, beynəlxalq cinayətlərə görə məsuliyyətin həyata keçirilməsində də qlobal səviyyədə ikili standartlar hökm sürür və bunun nəticəsində Azərbaycan ərazisində soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törətmiş canilərin bəziləri hələ ki məsuliyyətdən boyun qaçırmağa müvəffəq olurlar.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Ermənistanın müharibə cinayətlərinin beynəlxalq müstəvidə ifşa olunması üçün gənclərin üzərinə müəyyən vəzifələrin düşdüyünü deyib. O qeyd edib ki, müharibə hərb cəbhəsində başa çatsa da, informasiya cəbhəsində davam edir. Bu səbəbdən də Azərbaycan gəncləri beynəlxalq hüquqa istinad edərək ermənilərin müharibə cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması işində daha böyük fəallıq göstərir və bundan sonra da göstərəcəklər.

Tədbirdə daha sonra YAP Veteranlar Şurasının üzvləri Elman Məmmədov, Xeyrəddin Qoca, Əli Həsənov çıxış edib, gənclərin suallarını cavablandırılıb.

# Ramazan gözəl niyyətlər və xeyirxah əməllər ayıdır



*Müstəqil dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayını da xalqımız böyük sevinclə qarşılayıb.*

Mənəviyyat və əxlaqın zənginləşməsinə vəsilə olan oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Ramazanın fəzilətləri barədə müqəddəs kitabımız "Qurani-Kərim"də belə yazılır: "Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun.."

Bu hikmət dolu sözlər insanların saflığa, doğru yola çağırışıdır. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirir. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə bilirlər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanırlar.

### "RAMAZAN AYI İLAHİ HİKMƏTLƏR XƏZİNƏSİ MÜQƏDDƏS "QURANİ-KƏRİM"İN NAZİL OLMASI İLƏ ƏLAMƏTDARDIR"

Ramazan ayı təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır ki, həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır: "Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar".

Təbii ki, milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Zamanın müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli düşüncəsinə, onun bir vətəndaş kimi formalaşmasına təsirini göstərmiş, bu gün də yetişən nəsil, məhz bu prosesin içərisində özünü, azərbaycançılıq məfkurəsini dərk edərək, mövqeyini müəyyənləşdirir. Sözsüz ki, mənəvi dəyərlərimiz mənəviyyatımızı yaşadan dəyərlərin geniş bir məkanda təbliği əsasında reallaşır.

### "İSLAM DİNİNİN, DİNİ ADƏT VƏ MƏRASİMLƏRİN OLDUĞU KİMİ İNSANLARA ÇATDIRILMASI MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİNİN ƏSAS QAYƏSİDİR"

Dünyada multikultural və tolerant ölkə olaraq tanınan Azərbaycan milli dəyərlərə, adət-ənələrimizə də böyük hörmətlə yanaşır. Azərbaycan Prezidenti İlham Əliyev islami dəyərlərin milli dəyərlərimizin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirir: "... bizim çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür, yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır".

Müstəqil Azərbaycan ölkə Prezidenti İlham Əliyevin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasəti, qətiyyətli iradəsi sayəsində yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Ölkəmiz multikultural dəyərləri təşviq edir, dünyanı həmrəyliyə dəvət edir. Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və islam dünyasının inkişafında özünəməxsus rolu var.

Azərbaycanda tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən və irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə firavan həyat sürməsinə əsas verir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".

Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 19 ildə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi: "Ölkəmizdə bütün vətəndaşların dini etiqad azadlığı qanunvericiliklə tam təmin olunur. İslam dininin, dini adət və mərasimlərin olduğu kimi insanlara çatdırılması maarifləndirmə tədbirlərinin əsas qayəsidir. Bu sahədə görülən işlər təqdirəlayiqdir və davam etdirilməlidir".

*Nəzakət Ələddinqızı*

# "Ermənistanın xarici işlər naziri ilə söhbət konstruktiv olub"




Ermənistanın xarici işlər naziri ilə söhbət konstruktiv olub. SİA-nın məlumatına görə, bunu xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərin suallarını cavablandırarkən deyib. "Hər kəsə məlumdur ki, Azərbaycan həmişə Ermənistanla münasibətlərin normallaşmasının tərəfdarı olub", - deyə nazir bildirib.

Onun sözlərinə görə, Brüssel görüşü zamanı Azərbaycanın irəli sürdüyü və Ermənistan tərəfi üçün də əlverişli olan beş əsas bənd üzrə irəliləyişlər müşahidə olunub. C.Bayramov, həmçinin bildirib ki, iki ölkə arasında münasibətlərin bərpası işində irəliləyişlər üçün növbəti addımlar gözlənilir.

# "Aprel müşavirəsi həm də post-müharibə dövrünün bir illik hesabatı idi"



"Aprel müşavirəsi təkcə 2022-ci ilin üç ayının yekunlarına həsr edilmiş müşavirə deyil, həm də post-müharibə dövrünün bir illik hesabatı idi. Azərbacan Prezidenti İlham Əliyev əslində son üç ay da daxil olmaqla post-müharibə dövrünün reallıqlarını həm ölkə daxilində həyata keçirilən sosial-iqtisadi layihələr, ümumi inkşafımız kontekstində, həm də xarici siyasət və regional münasibətlər kontekstində kompleks olaraq təqdim etdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, üzərində durduğu məsələlər isə ayrı-ayrı bloklardan ibarət ibarət idi: "Diqqətlə nəzər saldıqda ilk növbədə görürük ki, Prezident əvvəla beynəlxalq məsələlərə nəzər salaraq ərazilərimizi bərpası və böyük qayıdış kontekstində əsas məsələlərdən biri kimi Azərbaycanın yaratdığı yeni reallıqların dünya tərəfindən qəbul edilməsi məsələsini aktuallaşdırdı. Bu özlüyündə olduqca mühüm məsələdir. Çünki Böyük Qayıdış da, ərazilərimizin yenidən bərpası və regionumuzda sülhün bərqərar olması məsələsi də həm də beynəlxalq aləmin baş verən proseslərə münasibəti ilə xeyli dərəcədə əlaqədardır. Ona görə də Prezident İlham Əliyev ilk növbədə dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin davranışlarına diqqət çəkərək onun Şuşada keçirdiyi tədbiri yüksək qiymətləndirdi. BMT-Azərbaycan münasibətlərinə xüsusilə Şuşada təşkil edilən birgə tədbirə ermənilərin reaksiyasını isterik adlandırdı. Beynəlxalq təşkilatların post-müharibə reallıqlarını qəbul etmələri kontekstində daha sonra Qoşulmama Hərəkatının, İslam Əməkdaşlığı Təşkilatının, ATƏT-in və nəhayət Avropa İttifaqının münasibətini müsbət xarakterizə etdi. Bu özlüyündə şübhəsiz ki, Azərbaycan xarici siyasətinin müharibə dövründə olduğu kimi post-müharibə dövründə də strateji uğuru kimi qiymətləndirilməlidir. Şübhəsiz ki, Azərbaycanın beynəlxalq nüfuzu və gücü sayəsində artıq yeni reallığın dünya tərəfindən qəbul edilməsi hadisəsidir. Bu, mühüm tarixi-strateji uğurdur.

Beynəlxalq məsələrə toxunan Prezident İlham Əliyev bir məsələni də xüsusi vurğuladı ki, ATƏT-in Minsk Qrupu de-fakto etibarsızdır, qeyri-funksionaldır. Yəni fəaliyyət göstərdiyi 28 il müddətində sıfır nəticə göstərdiyi kimi bu gün də faktiki olaraq fəaliyyətsizdir. Çünki onun fəaliyyətinin predmeti artıq yoxdur. Ona görə də Prezident İlham Əliyev ATƏT-ə maraqlı çağırış edərək bildirdi ki, bu təşkilat ictimai diplomatiyanı canlandıraraq regionda etimad mühitinin yaradılması ilə məşğul ola bilər. Yəni vətəndaş cəmiyyəti institutları, media və s. vasitəsilə bu istiqamətdə müəyyən işlər görmək mümkün ola bilər. Avropa İttifaqının mövqeyinə gəldikdə isə Prezident bu vacib qurumun aprel ayının 6-da təşkil etdiyi üçtərəfli görüşdə Ermənistan Azərbaycanın irəli sürdüyü 5 baza prinsipini qəbul etdiyini bildirdi. Bu, olduqca mühüm bir hadisədir və regionda sülhlə bağlı proseslərin başlanğıcı kimi də qiymətləndirilə bilər."

*Arzu Qurbanzadə*

# "Azərbaycan qarşısına qoyduğu məqsədlərə nail olur"



"Cənab Prezident 3 ayın hesabatında bu məsələyə toxundu və dəfələrlə onun ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan tərəfi Ermənistana 5 prinsipdən ibarət sənəd təqdim edib. Ermənistan isə bu sənədi qəbul etdiyini bildirib". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, Ermənistan öz fikrini bildirib ki, ərazi iddialarından əl çəkir: "Bu cənab Prezidentin qətiyyəti, prinsipiallığı və həyata keçirdiyi uğurlu siyasətin göstəricisidir. Bunun nəticəsində bu gün Azərbaycan qarşısına qoyduğu məqsədlərə nail olur".

Deputat sözlərinə belə davam edib: "Bu gün Ermənistan da Azərbaycanın mövqeyi ilə hesablaşır. Biz bu səviyyəyə gələnə kimi çox ciddi diplomatik siyasət həyata keçirmişik. Bu Azərbaycanın gücünü göstərir. Bizim hər zaman inamımız var idi. Bu açıqlama onu göstərir ki, Azərbaycanın mövqeyi qəbul olunur, təsdiqlənir və Azərbaycan öz mövqeyinə doğru addımlayır".

# Telefon xəyanət edən kişini necə ələ verir?

***Nikah birliyinin icrasında ən mühüm amil ər-arvadın bir-birlərinə sadiq qalmalarıdır. Qarşı tərəfin həyat yoldaşına qarşı zorakılıq göstərməsi, onu döyməsi, təhqir etməsi və başqa bir şəxslə yaşaması evliliyə zidd davranışlardır. Baş verən hadisələr fonunda boşanmaya səbəb olan hadisələrdə hər iki tərəfin müəyyən qədər günahı olur. Lakin başqa şəxslə yaşayan, xəyanət edən tərəfin günahı daha ağırdır.***







Sadiqlik öhdəliyi təkcə cinsi sədaqəti əhatə etmir, bura emosional və maddi sədaqət də daxildir.

Xəyanətlərin səbəbi kişilərə verilən imtiyazların nəticəsidir. "Sən kişisən", "hər şey edə bilərsən" deyib kişi böyütməməliyik. Burada ilk öhdəlik oğul analarının üzərinə düşür.

Hər evlilik yaxşı başlayır. Xəyanət isə evliliklərin olmazsa olmazı halına gəlib. Bəzən bu o dərəcədə qabarıq olur ki, bəziləri açıq şəkildə edirlər.

Xəyanət cütlüklər arasında ən böyük problemlərdən biridir. Bu gün şəxsiyyətlərarası münasibətlərdə ən dağıdıcı və travmatik hadisə olan xəyanət həm kişilər, həm də qadınlar tərəfindən edilə bilər. Bəs kişilər niyə xəyanət edir? Problemin mənbəyi nədir?

Evliliklərin əsası olan güvən, zövq, sevgi və hörmət böyük əhəmiyyət kəsb edir. Sağlam bir əlaqə cinsi və emosional paylaşımı ehtiva etməlidir. Bəzən bu dinamikalar sağlam şəkildə təmin edilmədikdə partnyorlar arasında çox böyük problemlər yarana bilər. Belə bir vəziyyətdə qadın özünü qınamamalı, dəyərsiz olduğunu, sevilmədiyini düşünməməlidir.

Kişinin xəyanətinin səbəbi bəzi hallarda bir və ya bir neçə faktorla bağlı ola bilər. Nə olursa-olsun, belə bir vəziyyəti normallaşdırmaq olmaz.

Xəyanətə uğrayan fərdlər, yaşadıqları travmanın öhdəsindən gəlmək və gələcək münasibətlərində bu problemin təsirindən qaçmaq üçün mütəxəssisə müraciət etməlidirlər.

Xəyanətə uğrayan fərd özünü qeyri-adekvat, çirkin, yaşlı və dəyərsiz görə bilər. Özünə inamsızlıqla qarşı-qarşıya qalan kişi, eqosunu düzəltmək və özünə inamını bərpa etmək üçün fərqli qadına ehtiyac duya və qarşı cinsin diqqətini çəkməyə çalışa bilər. Kişilərin partnyorlarından daim onların tələblərinə cavab verməsi və daim anlayışlı olması kimi gözləntiləri var.

Günümüzdə bir çox kişilər var ki, iki telefon və ya iki nömrədən istifadə edirlər. Bəziləri bunu iş üçün, bəziləri isə digər məlum olmayan səbəblərdən bu yollara əl atır. SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, ekspert və sosioloqların fikirlərini öyrənib.



**Psixoloq Nərgiz Hüseynova:** "Bura yalnız kişiləri aid etmək olmaz. Belə ki, kişilərlə yanaşı iki telefondan istifadə edən kifayət qədər qadınlar da var. Bu iş ilə evi, yəni iş həyatı ilə ailə həyatını ayırmaq üçün istifadə olunur. Digərləri isə evdən hər hansı bir məqamları gizlətmək üçün bu yola əl atır.

Psixoloji məqamlara gəldikdə isə ailədə olan qeyri-səmimilik, münasibətlərin pozulması və s. səbəblər ola bilər.

Dünya ölkələrində iş və şəxsi telefon fərqlidir. Azərbaycanda son zamanlar ailələr arasında ünsiyyət azlığına görə insanlar həmin xoşbəxtliyi öz ailələrində yox, digər şəxslərdə axtarır. Bu da bir-birini başa düşməməzlikdən, erkən nikahlardan irəli gəlir. Belə ki, onlar valideyn zoru ilə erkən yaşda evləndirilir və sonradan anlayır ki, bu onun istədiyi insan deyil. Bu məqamlar da 35-40 yaşda məlum olur. Bu da düzgün qərar verməmə, olqunlaşmama kimi hallardan baş verir".



**Psixoloq Aytən Ələkbərova:** "Kişilərlə yanaşı xanımlar da iki telefon işlədir. Bunların əksəriyyətinin səbəbi də işlə bağlıdır. Burada birbaşa proyektiv eksperiment, yəni quruluş məqsədli təcrübə var.

Yəni, bu iki telefon məsələsi yalnız qaranlıq səbəblərdən qaynaqlanmır. Təbii ki, bu cür istifadə edənlər də var. Onlar bunu əsasən sevgi macəralarına görə edir. Çox insanlar var ki, iş və ailə üçün fərqli nömrələrdən istifadə edirlər ki, daha rahat olsunlar. Ailələri ilə daha rahat əlaqə qursunlar. Yəni işlə ailə biri-birinə qarışmasın".



**Sosioloq Əhməd Qəşəmoğlu:** "2-3 telefondan istifadə etmək məsələsi dünyanın hər yerində var. Bu qeyri-adi məsələ deyil. Əsas səbəb odur ki, bəzi insanlar yeni tipli telefonlardan istifadə etmək istəmir. Çünki bu telefonlarda şəxsi məlumatların yayılma riski çox yüksəkdir və bu telefonlara kənardan müdaxilə də olur.

Bu insanın iş yerindən də asılı ola bilər. Məsələn, ona gələn zəng birbaşa xidməti zəng ola bilər. Yəni, bu sırf iş üçün ola telefondur.

Bəziləri isə evdən gizli işlərini gizlətmək üçün bu telefonlardan istifadə edir. Variantlar müxtəlifdir".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Son yarpaq

## Oçerk

*Bakı 2020-nin payızını yaşamaqdaydı. Günəş günlərdi önünü kəsmiş qara buludun o yan-bu yanına keçib, yerə bir zolaq gün payı bəxş etməyə çalışsa da, bu, küləklər şəhərinə əsla bəs etmirdi. Şəhər payızın sazağı, çiskin yağışları ilə mücadilə aparır, küçələrdəki insanları qarşısına alıb sürətlə mənzil başına çatmalarına yardım edirdi. Hələ payızın əvvəli olsa da, sanki vaxtsız saralıb ağaclardan üzülüşən qızılı, sarı yarpaqlar küləyin qarşısında küçəbəküçə, dalanbadalan dolaşır, heydən düşür, bir yerə topalaşır, yenidən küləyə boyun əyirdilər. Adama elə gəlirdi ki, bu külək düz Qarabağdan əsib gəlir, müharibənin acısını, fəlakətini sazağa, soyuğa çevirib el-el, şəhər-şəhər səpələyirdi.*



Aynur hərgünkü kimi oktyabrın 5-i də adəti üzrə sübh çağından oyanmışdı. İşə getməyə hazırlaşırdı. Belə sübh çağı qapının zəngi vurulanda bir anlıq özünü itirdi. Kim ola bilərdi ki, bu vaxt? Günlərdi ağlında olan fikirləri ürəyinə gətirməyə ehtiyat etdiyindən onları yaxınına belə qoymamağa çalışırdı. Lakin nə qədər çalışsa da, yenə də xəyalına birinci gələn o fikir oldu. Elə bil bu andaca bayırda küləyin vıyıltısı daha da şiddətləndi, evəona tərəf əsdiyini hiss etdi. Hər gün payızın o son yarpağının alın yazısı olacağını düşünüb, elə düşünən andaca qorxudan xəyalından uzaqlaşdıran Aynur külək qapını-pəncərəni açıb sazağını onun üzünə sillə kimi vuranda sanki yuxudan oyandı. Qapını açmalı olduğunu dərk etdi. Yaxınlaşdı və əlləri titrəyə-titrəyə açdı qapını. Onlar idi, Vüqarın qohumları. Nişanlısının yaralanması, onu görmək istəməsi xəbərini gətirmişdilər.

Aynur bir an hərəkətsiz qaldı. Nə deyəcəyini, necə hərəkət edəcəyini bilmədi. Sanki bir sükut çökdü dünyasına. Ona elə gəldi ki, ta bundan sonra nə bir kəlmə söz danışa, nə də bir addım atıb yeriyə bilər. Vüqarın qohumları onu apardılar. Lakin getdiyi yol onu xəstəxanaya deyil, nişanlısının evinə aparırdı. Aynur isə heç bunun fərqində də deyildi. O nə düşünə, nə də görə bilirdi. Sükut gözlərinin qarşısına qalın bir pərdə çəkmişdi. Baxışı da, düşüncəsi də bu pərdədə bitirdi. Sadəcə baxır, gözlərinin önündəki o qara pərdədə Vüqarın gülümsəməsindən başqa heç nə görə bilmirdi. Qarabağa müharibəyə yollanarkən Aynurla görüşündəki o gülümsəməni...

Birazdan evə çatırlar. Bayaq Aynurgilin evinə bayırdan vıyıltı ilə soxulan kulək indi Vüqargilin evindən bayıra həmin vıyıltı ilə çıxırdı. Aynur bu səsi də özü üçün aydınlaşdıra bilmirdi. Külək səsiydimi, yoxsa bir ananın, atanın, bacının, qardaşın, qohumun, yaxının nalə səsiydimi? O bunu içəriyə keçib ortalıqdakı tabutu görəndə anlayacaqdı. Anlayacaqdı ki, ağlına gələn başına gəlib. Bu vıyıltı da Vuqarın anasının fəryadı, atasının naləsi, buradakı hər kəsin "Vüqar" deyib ağlaması idi.

Aynur elə o susan da susur. Sükuta qərq olur. Sanki cəsarəti əlindən alınır. Nə çığırmağa, nə Vüqarı səsləməyə, nə də bir kəlmə danışmağa özündə güc tapa bilir. Tək bacardığı sakitcə bir kənarda əyləşib gözlərindən axıtdığı leysan kimi yaş olur. Bu an onun dünyasını əlindən alırlar. Yeni dünyasında isə hələ yeriməyi, danışmağı, səslənməyi öyrənə bilmir. Günlərlə bu yeni dünyanın hissiyyatsız varlığına çevrilir. O, nə vaxtsa bu yeni dünyasından öz dünyasına qayıdacaqdı. Lakin buna zaman lazım idi. Qayıtdığında isə onun üçün Vüqarsız gün elə oradan başlanacaqdı. İndi bütün varlığı donmuşdu, azacıq hərarətlə açılacaq bu don ona sevdiyi insanın yoxluğunu anlatdıqca Aynurun yaraları göynəyəcək, sağalmaq bilməyəcəkdi... Lap sonralar xahiş edəndən sonra mənə Vüqarın müharibədə iştirakından, necə tanış olmalarından ürək ağrısı ilə danışacaqdı:

- Vətən, torpaq uğrunda canını qurban vermək üçün Qarabağa yollanan minlərlə gəncimizdəndi Vüqar Cəfərov. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu idi. 44 günlük Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilib. Cəbrayıl və Kəlbəcər rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən isə "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. Bütün şəhid ailələri kimi, Vüqargilin ailəsi də dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub.

Vüqarla tanışlığımız isə belə olmuşdu ki, mən onun dostunun həyat yoldaşı ilə bir yerdə işləyirdim. Tanışlığımız da onların sayəsində olmuşdu. Artıq ailələrimiz tanış olmuşdular. Mənə elçi də gəlmişdilər. Martın 20-nə nişan vaxtını təyin etmişdik. Lakin pandemiya səbəbindən geniş nişan keçirə bilmədik. Nişanımız bizim evdə oldu. Artıq müharibə başlananda toyumuzun vaxtı da təyin olunmuşdu. Hər iki ailədə hazırlıqlar görülürdü.

Axırıncı sözləri deyəndə Aynurun səsi o qədər titrəyirdi ki... Onunla görüşməyi, söhbətləşməyi istədiyim üçün üzr dilədim. Çox kövrəlmişdi, özünü ağlamaqdan zorla saxlayırdı. Düşündüm ki, yenə bir sual versəm gözlərindən leysan yağacaq. Mən bu cür düşünərkən o:

- Unutmaq olmur. Çox çətindir. Vüqarı itirməklə mən hər şeyi itirdim. Arzularımı, ümidlərimi, xəyallarımı...

Sözün bitdiyi an idi bu an. Mən də xeyli düşüncələrə daldım. 2020-nin payızından Aynurun gözlərinin gözlərim önündən keçirdim. Vüqar onun payızının son yarpağı idi. Hər gün Aynurun payızın sazağına sarılıb ömrünə əsə biləcək o vıyıltılı küləyi dəf etmək mücadiləsini, o küləyin tək ümidi olan son yarpağı ağacdan salıb ümidini kəsəcəyini xəyal etdikcə ürəyim şan-şan oldu. Mən düşündükcə onun uzaq bir nöqtəyə dikilmiş gözlərində o son yarpağın "rəqsini" görürdüm...

Ta bircə kəlmə də nə o, nə də mən danışmalı idik. Yoxsa Aynurun ürəyi daha da sıxılardı. Onsuz da o ürəyin sıxıntıdan, kədərdən başqa qonağı yoxdur ki. O ürək Vüqarın xatirələrinin oylağıdır. Onunla ötən günlərin saxlanc yeridir. O ürəkdə tək sevgi yoxdur. Vüqarın səsi də, rəsmi də oraya əbədiyyən həkk olunub. Aynur o ürəyi daşıdıqca da Vüqar onun içində, ailə qurması, həyat yoldaşı, övladlarının anası olması üçün seçdiyi növrəstə qızın ürəyində yaşayacaq.

Torpaq namusdur. Torpağı düşməndən qorumaq namusu qorumaq, onu düşməndən geri almaq namusu xilas etməkdir. Belə isə minlərlə şəhidimizin Aynur kimi yarının, gözüyaşlı ata-anasının, saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb şəhid övladı böyüdən həyat yoldaşlarının, ümumilikdə xalqımızın həm kədəri, həm qürurudur şəhidlər. Elə Vüqarı da dünya durduqca belə anacağıq:

Dağ başında qar sənsən,
Qar sənsən, vüqar sənsən.
Vətən adlı zirvəyə
Ad yazan, Vüqar, sənsən.

**Mətanət MƏMMƏDOVA**

# "Fərrux dağının strateji əhəmiyyəti Azərbaycan üçün çox böyükdür"



***"Fərrux dağının strateji əhəmiyyəti Azərbaycan üçün çox böyükdür. Dünənki müşavirədə də Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Fərrux dağı və yaşayış məntəqəsi haqqında öz fikirlərini söylədi. Bu istiqamətdə su mənbələrinin olması və ətraf yaşayış məntəqələrinə Ermənistan silahlıları tərəfindən atəşkəsi pozub təhlükə yaratması haqqında mütəmadi olaraq məlumat alırıq". Bu sözləri SİA-ya açıqlamasında hərbi-ekspert Şair Ramaldanov deyib.***

Onun sözlərinə görə, təhlükəni neytrallaşdırmaq məqsədi ilə Azərbaycan Ordusunun bölmələri Fərrux yaşayış məntəqəsi istiqamətində mövqe dəqiqləşdirmə işləri apararaq orada olan mövqelərə tam şəkildə nəzarət edirlər: "Bu da ermənilərin narahatlığına səbəb olub. Bu barədə mətbuatda da çoxsaylı fikirlər var".

Şair Ramaldanov sözlərinə belə davam edib: "Azərbaycanın mövqeyi aydındır. Azərbaycan daxilində bütün əməliyyat şəraiti nəzarət altındadır. Düşünürəm ki, lazımi bütün tədbirlər görülüb və bundan sonra da görüləcəkdir".

***Ayşən Vəli***

# Birinci "Rəqəmsal İdeya Müsabiqəsi" keçiriləcək




Yeni Azərbaycan Partiyası Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin təşkilatçılığı ilə 1-ci "Rəqəmsal İdeya Müsabiqəsi" həyata keçiriləcək. Ümummilli lider Heydər Əliyevin 99-cu ildönümünə həsr olunan müsabiqənin əsas məqsədi Yeni Azərbaycan Partiyasının gənc fəallarının innovasiya yönümlü potensiallarının aşkarlanması, komanda və rəqəmsal ideya quruculuğu sahəsində bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən ölkəmizdəki innovasiya ekosistemində gənclərin iştirakçılığının artırılmasıdır.

Öz innovativ yanaşmaları ilə fərqlənən gənclər arasından yekunda 120 nəfər iştirakçı olmaq şansını əldə edəcək. Seçilmiş iştirakçılar əsasında 30 komanda formalaşdırılacaq.

1-ci "Rəqəmsal İdeya Müsabiqəsi"-ndə iştirakçılar 9 saat ərzində xüsusi mentorlarla komanda katalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından təşkil olunmuş komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparacaqlar.

Qalib komandaları xüsusi mükafat və dəyərli hədiyyələr gözləyir.

1-ci "Rəqəmsal İdeya Müsabiqəsi"-ndə iştirak etmək və gələcəyin çağırışlarına öz töhfənizi vermək istəyirsinizsə, aşağıdakı link vasitəsi ilə qeydiyyatdan keçə bilərsiniz.

Qeydiyyat üçün: bit.ly/37bnH59
Təklif və suallar üçün: gencler_birliyi@yap.az
Son qeydiyyat tarixi: 12:00, 28.04.2022

# Ermənistan seçim qarşısında!



**Bu vaxta qədər Ermənistanın hansısa bir mövqedə qaldığının kimsə şahidi olmayıb və bu işğalçı ölkənin hər zaman ikibaşlı oyunlar oynadığı hər kəsə bəllidir. Bir tərəfdən Qərbə, digər tərəfdən isə Rusiyaya meyil edən ermənilər hər zaman özləri üçün bir arxa, dayaq axtarışında olublar. Bu işğalçı ölkənin məqsədi ianələr almaq və işğalçılıq siyasətinin kimlərsə tərəfindən dəstəkləndiyinə əmin olmaq olub, amma rəsmi İrəvan hansı tərəfdən dəstək ala biləcəyini hələ də təyin edə bilməyib. Əksinə, hansısa mənada dəstəyin olacağı belə bu ölkədə şübhə ilə qarşılanır və ona görə də ümidi kəsilən Ermənistanın seçim qarşısında qaldığı günün reallığıdır.**

TƏHLİL

Artıq ermənilər Rusiyanın bölgədə söz sahibi olmasına, eləcə də imkanlarına inanmadığını nümayiş etdirir və belə görünür ki, onlar hətta rusları qıcıqlandırmağa belə cəhd edirlər. Əsasən də sülh danışıqları prosesində Rusiyanın rolunu şübhə altına aldığını nümayişkarənə şəkildə göstərən ermənilər bununla ABŞ-ın, Qərbin diqqətini cəlb etmək istəyirlər. Ermənistan hakimiyyətinin Brüssel görüşünə həssa yanaşma nümayiş etdirməsi də bu səbəbdən idi. Təsadüfi deyildi ki, Rusiya tərəfi buna dərhal reaksiya da verdi və məhz Lavrovun İrəvana mesajları da bunun əks-sədası sayılır. Çünki, Lavrov Ermənistan tərəfini çox yaxşı tanıyır və bilir ki, ermənilərin Qərbə meyl etməsində məqsəd daha güclü himayə qazanmaqdan, dəstək almaqdan ibarətdir və əgər onlar buna ümid edirlərsə, deməli artıq ruslara xəyanət etməyə çoxdan hazırdırlar.

Moskvada Lavrovun öz həmkarı Mirzoyana, eləcə də birbaşa rəsmi İrəvana mesajlar göndərməsindən belə məlum oldu ki, hal-hazırda Ermənistanın məhz Brüssel görüşünün nəticələrinə sadiq qalacağı görüntüsünü yaratdığını müşahidə etmək belə Rusiya üçün heç də qəbuledilən deyil. Əlbəttə, Lavrov başa düşür ki, sərhədlərinin qorunması məsələsində Ermənistana dəstək göstərəcəyini vəd etsə də ermənilər Brüssel görüşünün nəticələrini arxa plana keçirmək fikrində deyil və bu heç də görüşün nəticələrinə sadiqlik ifadəsi deyil, sadəcə himayədar axtarışıdır. Bu hal isə Ermənistanın ikibaşlı oyunu barədə Rusiya tərəfinin məlumatlı olması anlamına gəlir. Ruslar yaxşı bilirlər ki, Ermənistanın mövcud hakimiyyəti Rusiyanın Cənubi Qafqazda hansısa perspektivə malik olmasına şübhə ilə yanaşır və istənilən anda ermənilər öz böyük qardaş adlandırdıqlarını Qərbin ayağına verə, sata bilərlər.

Görünən də odur ki, Brüssel görüşünün ardınca Ermənistan tərəfi Azərbaycanla münasibətlərdən, ikitərəfli və birbaşa təmaslardan qaçmır, boyun qaçırmır. Baxmayaraq ki, bu hal Rusiyanı qane etmir, amma Azərbaycan və Ermənistanın xarici işlər nazirləri telefon əlaqəsi yaradaraq sərhədlərin delimitasiyası məqsədi ilə ikitərəfli kamissiyanın yaradılmasını müzakirə ediblər, hətta ölkələr arasında yekun sülh sazişinin hazırlanması məsələsi də müzakirə predmeti olub. Bu isə ondan xəbər verir ki, Ermənistan tərəfi artıq Rusiyanın, yaxud Qərbin olması fonunda belə çıxılmaz vəziyyətə düşdüyünün fərqindədir. Bu o demək deyil ki, Brüssel danışıqlarının timsalında Ermənistan hansısa danışıqlara sadiqlik nümayiş etdirir, sadəcə bu işğalçı ölkə Azərbaycanın bölgədə yaratdığı reallıqları görməməzliyə vura bilmir. Əksinə, indi artıq rəsmi İrəvan başa düşür ki, hər bir halda Azərbaycan tərəfi haqlıdır və bununla onlar barışmaq məcburiyyətindədirlər.

Paşinyan hakimiyyətinin Ermənistanı hansısa xəyallara, Qarabağla bağlı erməni xülyalarına qurban vermək istəmədiyi göz önündədir. Bu zamana qədər hansısa qondarma və dırnaqarası "status" barədə danışan Ermənistan hakimiyyəti indi Qarabağ sözünü gündəmə belə gətirmək istəmir. Təbii ki, Paşinyana yaxın hakimiyyət nümayəndələrinin erməni cəmiyyətində müəyyən təbliğatlar aparması, sülh sazişinin açılmaz olduğu barədə erməni xalqına təbliğat etmələri də anlaşılandır. Anlaşılan odur ki, erməni baş nazirin yaxın ətrafı erməniləri sülh sazişinə psixoloji cəhətdən hazırlayır ki, bu saziş zamanı Ermənistan hakimiyyəti onlar tərəfindən hədəfə alınmasın. Deməli, rəsmi İrəvan ciddi seçim qarşısında qaldığının nəinki fərqindədir, hətta onu da qəbul edir ki, Azərbaycanın hərbi-siyasi iradəsini Ermənistan etiraf etmək məcburiyyətindədir. Eyni zamanda Azərbaycanın diqtə etdiyi şərtlərə razılaşmaqdan başqa Ermənistanın çıxış yolunun olmadığını Paşinyan hakimiyyətinin da anladığı göz önündədir. Ermənilər çox yaxşı başa düşürlər ki, ikibaşlı oyunlar oynamalarına artıq zərrə qədər imkanları, şansları yoxdur və ələlxüsus Rusiya-Ukrayna müharibəsi, Avropanın, ABŞ-ın Rusiya ilə toqquşması fonunda Ermənistan hər bir halda himayəsiz qalır. Araik Arutyunyanın qondarma qurumuna maliyyə dəstəyinin tamamilə kəsilməsi isə ermənilər üçün qırmızı xətti göstərir, həyacan siqnalının səsləndiyini xəbər verir.

Rəsmi İrəvan qəbul edir ki, Rusiyadan imtina etməyəcəyi halda Qərbdən maliyyə dəstəyi ala bilməz və Rusiyaya da bu mənada zərrə qədər ümid yoxdur. Çünki, Rusiya işğalçı ölkəyə yalnız hərbi yardım göstərib, maliyyə yardımı yox. Xüsusən də bu şəraitdə Rusiyanın Ermənistana nəinki maliyyə yardımı, ümumiyyətlə, hansısa yardım göstərməyə durumu belə yoxdur. Ona görə ki, Rusiyanın özünün bu məqamda hər mənada yardıma ciddi ehtiyacı var və bölgədə nəzarəti əldən verməməl, ermənilərin Qərb tərəfə meyillənmələrinin qarşısını almaq məqsədi ilə Lavrovun bütövlükdə Ermənistana mesajlar göndərməsinə baxmayaraq, ermənilər rusların indi heç yadına da düşmür, onlar öz hayındadırlar, hayların hayında yox. Bir sözlə, hər tərəfdən əlləri üzülən ermənlərin, bütövlükdə Ermənistanın seçim qarşısında qaldığı günün reallığıdır və haylar dərk etməlidirlər ki, Azərbaycanın yaratdığı reallığı qəbul etməkdən, bununla barışmaqdan, sülh sazişini imzalamaqdan başqa onların heç bir seçimi qalmayıb.

***İnam Hacıyev***

# “Bütün bunlar Azərbaycanın diplomatik sahədəki uğurlarıdır"



“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən sülh gündəliyinin əsası əslində 2021-ci ilin dekabr ayında ilk keçirilmiş üçtərəfli görüşdə qoyulmuşdu”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aqil Məmmədov bildirib.

Onun sözlərinə görə, bu prosesin davamı olaraq tərəflər arasında mütəmadi olaraq təmaslar aparılıb, telefon danışıqları keçirilib: "İki tərəf arasında isti bir münasibət yaradılıb. Aprelin 6-da təxminən 4 saat yarımdan artıq davam edən görüşün nəticəsi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılmasıdır. Eyni zamanda bu məsələ ilə əlaqədar olaraq hər iki ölkənin Xarici İşlər Nazirliklərinə bu istiqamətdə işlərin vaxtında aparılması da tapşırılıb.

Sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü məlum 5 maddədən ibarət təklif olmuşdu. Yəni danışıqlar bu təklif əsasında aparılmışdı və əsas məqam ondan ibarətdir ki, sözügedən istiqamətdə ərazi bütövlüyü bu təkliflərdən biri olmuşdur. Danışıqlar bu əsasda aparılmışdı. Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaradılması barədə də razılıq əldə olunmuşdur. Hesab edirəm ki, bunun nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılacaq, işlərin lazımi səviyyədə aparılmasına imkan yaradılacaqdır. Eyni zamanda üçtərəfli danışıq əsasında nəqliyyat-kommunikasiyanın yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi ilə bağlı iqtisadi məşvərət şurası yaradılması da qərara alınmışdır.

ATƏT-in artıq bir qurum kimi fəaliyyətinə də ehtiyac yoxdur. Çünki ATƏT-in üçtərəfli danışıq zamanı heç bir söhbəti olmadı. Bu da təqdirəlayiq bir hal kimi qəbul oluna bilər. Avropa İttifaqı yeni reallıqları qəbul edir və Azərbaycanla Ermənistan arasında danışıqları nəzərdə tutan yeni bir mexanizm, format hazırlanıb. Avropa İttifaqının məqsədi tərəflər arasında münasibətlərin normallaşdırılmasıdır. Son vaxtlar Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər yeni bir səviyyəsinə yüksəlməkdədir. Avropa İttifaqı da təhlükəsizliyinin təmin edilməsində Azərbaycan ilə Avropa İttifaqı arasında təmasların artması, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparılması da vacib məsələlərdəndir. Eyni zamanda sülh müqaviləsi, sərhədlərin delimitasiyası, açılması və digər məsələlərin həlli istiqamətində addımların atılması da mühüm şərtlərdən hesab olunur. Avropa İttifaqı və Azərbaycan arasında təmasların yüksək səviyyəyə qalxması da Cənubi Qafqaz regionunda sabitliyin bərqərar olmasına gətirib çıxarır. Brüssel görüşünü Azərbaycanın milli maraqlarının təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğuru kimi qiymətləndirmək olar. Eyni zamanda bütün bu kimi işləri Azərbaycanın diplomatik sahədə də əldə etdiyi uğurların növbəti bir addımı kimi də qəbul etmək olar”.

***Səbinə Hüseynli***

# “Paşinyan Azərbaycanla sülh sazişi bağlamağa məcburdur”

***“Aprel ayının 12-də cənab Prezidentin sədrliyi ilə cari ilin I rübünün yekunlarına həsr edilmiş müşavirədə İlham Əliyev Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul etməsi ilə bağlı danışıb”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.***



Onun sözlərinə görə, Prezident Ermənistanın Azərbaycan tərəfindən irəli sürülən təklifləri qəbul etdiyini bildirib: "Təbii ki, Azərbaycan 44 günlük Vətən Müharibəsində qələbə qazanaraq torpaqlarını işğaldan azad etdikdən sonra öz gücünü formalaşdırdı. Bu da ölkəmizə davamlı olaraq siyasi xarakterli qələbələr gətirmiş oldu".

Deputat sözlərinə davam edərək həmçinin qeyd edib ki, qələbədən sonrakı mərhələdə Azərbaycan prioritet hesab edilən hədəflərə doğru irəliləməyə başladı: "Post-münaqişə mərhələsində yekun sülh sazişinin bağlanılması həm ölkəmizin, həm də regionun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sazişin şərtlərini dəfələrlə Ermənistana bildirərək bütün dünyaya da bəyan edib. İlk öncə sərhədlərin delimitasiyası aparılmalı, Ermənistan Azərbaycana qarşı olan ərazi iddialarından əl çəkməlidir. Bu baza prinsipləri təmin olunmadan yekun sülh sazişini imzalamaq mümkün deyil. Ermənistan ağır məğlub vəziyyətini yüngülləşdirmək istiqamətində bir sıra cəhdlər edib. Lakin bu cəhdlərin səmərəsizliyini gördükdən sonra Azərbaycanın təkliflərini qəbul etməyə hazır olduğunu bildirib.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Paşinyan Ermənistanın Azərbaycanla sülh sazişi imzalamağa məcbur olduğunu açıqlayıb. Bununla da, Ermənistan xalqına sülh sazişi bağlanmasa 2020-ci ildə baş verən məğlubiyyətin təkrarlanacağını bildirib. Bu, İlham Əliyevin doğru siyasət apardığının göstəricisidir".

***Ləman Əlizadə***

# "Postmüharibə dövrünün reallıqları beynəlxalq miqyasda qəbul edilir"

***"Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə postmünaqişə dövrünün reallıqları fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində güclənən mövqeyinə, ölkəmizin iqtisadi imkanlarının genişlənməsinə, işğaldan azad edilmiş ərazilərimizdə abadlıq-quruculuq işləri ilə bağlı görülən tədbirlərin miqyasına, eyni zamanda, qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə bir daha işıq saldı. Cari ilin birinci rübünün yekunları bütövlükdə 2022-ci ili də uğurla başa vuracağımıza böyük əsaslar yaradır.***



Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil olan iqtisadi inkişafa nəzər salsaq Azərbaycanın ilin birinci rübündə əldə etdiyi sosial-iqtisadi göstəricilərin qənaətbəxş olduğunu görərik. Bu müddətdə ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir. Qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur. Bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas hədəf kimi qoyan dövlət başçısı İlham Əliyevin bu istiqamətdə atdığı addımların məntiqi nəticəsidir ki, Azərbaycan hər bir çətinlikdən uğurla, az itki ilə çıxmağa nail olur. 2019-cu ildən dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda Azərbaycanın iqtisadi artımı ilə diqqətdə olması, 30-dan artıq ölkəyə humanitar və maddi yardım göstərməsi kimi mühüm addımlar imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynayır. Dövlət başçısı İlham Əliyev müşavirədə birinci rübün yekunlarına söykənərək bildirmişdir ki, hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur və bəlkə də "postpandemiya" sözünü işlətmək bir qədər tezdir. Amma dünyadakı və Azərbaycandakı indiki vəziyyət buna işarə verir". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

"Postmünaqişə dövrünün reallıqlarından biri kimi Azərbaycanın mövqeyinin daha da möhkəmlənməsi, beynəlxalq təşkilatların ölkəmizin hər sahədə fəaliyyətini yüksək qiymətləndirmələri, bölgədə sülhün, təhlükəsizliyin təmin olunması üçün dəstək göstərməyə hazır olduqlarını bildirmələri həyata keçirilən siyasətin uğurlarının əyani təzahürüdür" söyləyən Vüqar Rəhimzadə vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu müddətdə beynəlxalq təşkilatlarla fəal əməkdaşlığını davam etdirmiş və dünyanın aparıcı qurumları İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın regionumuzda yaratdığı yeni reallıqları qəbul etmişlər: "Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr olunmuş tədbirin Şuşada keçirilməsi çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT postmünaqişə dövrünün reallıqlarını qəbul edən, Azərbaycanın ərazi bütövlüyünü tanıyan ən nüfuzlu beynəlxalq qurumdur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu və erməni işğalçılarının bu ərazilərdən qeyd-şərtsiz çıxarılmasının vacibliyi öz əksini tapıb. Baxmayaraq ki, sənədlər 30 ilə yaxın dövrdə kağız üzərində saralaraq ədalətli icrasını gözlədi, amma dünya gücləri işğalçını adı ilə çağırmadan məsələnin sülh yolu ilə həllinin mümkünlüyünü bildirərək ikili standartlara əsaslanan siyasətləri ilə 44 günlük İkinci Qarabağ müharibəsinin baş verməsinə səbəb oldular. Amma reallıq budur ki, BMT o zaman da Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi, bu gün də Zəfərimizin yaratdığı reallıqları qəbul edərək ölkəmizin bu aparıcı beynəlxalq təşkilata üzv qəbul edilməsinin 30 illiyini 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı elan edilmiş Şuşada qeyd etdi. BMT-nin bu addımı Ermənistanda növbəti panikaya, isterikaya səbəb oldu."

YAP Xətai rayon təşkilatının sədri bildirib ki, BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatı hazırda tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin həllində daim ədalətli mövqeyi ilə diqqət çəkib: "Qurumun Vətən müharibəsinin davam etdiyi, həmçinin postmünaqişə dövründə ölkəmizə dəstəyi göz önündədir. Qoşulmama Hərəkatına üzv dövlətlərin razılığı və dəstəyi ilə Azərbaycanın quruma sədrlik müddətinin daha bir il uzadılması da ölkəmizə beynəlxalq səviyyədə inam və etimadın göstəricisidir. Xüsusi vurğulanmalıdır ki, Avropa İttifaqının təşəbbüsü ilə iki dəfə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin görüşlərinin keçirilməsi, Brüssel sülh gündəliyinin əsasının qoyulması, artıq Minsk qrupu formatına ehtiyacın olmaması, ən əsası "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinin tarixə qovuşması Azərbaycanın beynəlxalq mövqeyinin təqdimatlarıdır."

Vüqar Rəhimzadə bildirib ki, dövlət başçısı İlham Əliyev bu uğurlarımız fonunda bütün çıxışlarında, o cümlədən aprelin 12-də keçirilən müşavirədəki nitqində belə bir çağırışı da etdi ki, heç vaxt işğalı, erməni vəhşiliyini unutmamalıyıq: "Azərbaycan bu gün tarixi Zəfərinin yaratdığı reallıqların dünyada qəbul edilməsinə nail olmaqla yanaşı, həm də işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərini həyata keçirir. İkinci Qarabağ müharibəsinin yaratdığı reallıqlar əsasında Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması qarşıda duran əsas məsələlərdən biridir. Bu baxımdan ki, yeni əməkdaşlıq formatlarının yaradılması, kommunikasiyaların açılması, bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün sülh müqaviləsinin imzalanması əsasdır. Amma bununla yanaşı, ermənilərin havadarlarının dəstəyi ilə tarixin müxtəlif dövrlərində azərbaycanlılara qarşı törətdikləri soyqırımlar, faciələr, insanlığa sığmayan müharibə cinayətləri unudulmamalıdır. XX əsrin dəhşətli faciəsi olan Xocalı soyqırımını necə unuda bilərik? 44 günlük İkinci Qarabağ müharibəsinin davam etdiyi dövrdə erməni vəhşiliklərinin növbəti təzahürü olan Gəncə, Bərdə, Tərtər qətliamlarını unuda bilərikmi? Nə qədər günahsız insanlar qətlə yetirilib. Bunlar Azərbaycan tarixinin faciəli səhifələridir. İndiki və gələcək nəsillər tariximizi vərəqləyərkən tarixi Zəfərimizdən qürur duymaqla yanaşı, ermənilərin necə vəhşi toplum olduqlarını, başımıza gətirdikləri faciələri bilməlidirlər. İşğalın davam etdiyi 30 ilə yaxın dövrdə müharibə şəraitində yaşasaq da Azərbaycan daim inkişafı, tərəqqisi, Ermənistan isə əksinə bu və ya digər ölkədən asılılığı ilə diqqət çəkib. Ermənistan ən kasıb ölkələr sırasında qərarlaşıb. İşğalçı dövlətin büdcəsinin 80 faizdən çoxu iyanələr hesabına formalaşıb. Bunu dünya görür, hər zaman müxtəlif adlar altında Ermənistana maddi və mənəvi dəstək göstərməyə çalışırdılar. Bu dəstəklər Ermənistanı heç zaman qalib ölkəyə çevirə bilməzdi. Başqasının torpağına göz dikərək əsassız iddialarla yaşamağın, xülyaların sonu məhz bugünkü reallıqlarla nəticələnməli idi. Azərbaycan Zəfəri ilə bir daha dünyaya gücünü, qüdrətini nümayiş etdirdi."

YAP Xətai rayon təşkilatının sədri dövlət başçısı İlham Əliyevin müşavirədə səsləndirdiyi "Gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir" fikirlərini önə çəkərək Ermənistanın inkişafının özündən, qonşu ölkələrə bundan sonrakı münasibətindən asılı olacağını xüsusi qeyd edib: "İşğalçılıq siyasəti, qonşu dövlətlərə qarşı əsassız torpaq iddiası ilə çıxış etmək Ermənistana çox baha başa gəldi. Bütün enerji layihələrindən təcrid olunan Ermənistan iqtisadi böhran içərisində çabaladı, ölkəni kütləvi tərketmələr davamlı xarakter aldı. Müstəqilliyi formal xarakter daşıyan Ermənistan bu və ya digər dövlətlərin əlində maraqlarının həyata keçirilməsində bir vasitəyə çevrildi. Hazırkı postmünaqişə dövrü Ermənistana şans verir ki, Azərbaycanla sülh müqaviləsini imzalamaqla özünün iqtisadi vəziyyətini yaxşılaşdırsın, yeni regional və qlobal əməkdaşlıq formatlarında iştirak etmək imkanı qazansın. Dövlət başçısının vurğuladığı kimi, Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək."

Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, hazırda günümüzün əsas məsələsi olan sülh gündəliyinin reallığa çevrilməsi istiqamətində addımların atılması ilə yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri də geniş miqyas alıb: "Dövlət başçısı İlham Əliyev müşavirədəki yekun nitqində qarşıdakı bir-iki il üçün bu torpaqlarda görüləcək işlərin miqyasını açıqladı. Bu işlər nəqliyyat infrastrukturunun yenilənməsi, bərpası, qaz, enerji xətlərinin çəkilişi, şəhərlərin baş planlarının hazırlanması, ərazilərin minalardan təmizlənməsi və Böyük Qayıdışın tezliklə reallığa çevrilməsidir. Zəngilanın Ağalı kəndləri bu il sakinlərini qarşılayacaq. Bu il, həmçinin "Ağıllı kənd" layihəsi çərçivəsində Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq kəndlər də bərpa ediləcək. Bir sözlə, soydaşlarımızın öş doğma yurd-yuvalarına qayıtmaları üçün kompleks tədbirlər görülür. Hər zaman verilən vədin, irəli sürülən təşəbbüslərin gerçəkliyə çevrildiyinin şahidi olan xalqımız işğaldan azad edilmiş ərazilərimizlə bağlı bütün planların real həyatda öz əksini tapacağına əmindir."



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Yeni sülh erasının başlanğıcı: Prezidentin mesajları

***Aprelin 12-də Prezident İlham Əliyevin Sədrliyi ilə ilin birinci rübünün yekunlarına həsr edilmiş müşavirədə bir çox vacib məqamlara toxunuldu və həmin əhəmiyyətli məsələlərdən biri də Azərbaycan və Ermənistan arasında əlaqələrin bərpa edilməsi istiqamətində atılan addımlarla bağlıdır.***

O da sirr deyil ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində yaratdığı yeni reallıqlar bir sıra nüfuzlu beynəlxalq qurumlar tərəfindən tanınır. Buna misal olaraq BMT, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatını və s. göstərmək mümkündür. Lakin ən əsası, bu reallıq Ermənistan tərəfindən də qəbul edilməkdədir.

Xüsusilə, rəsmi Bakının təqdim etdiyi 5 maddəlik sülh təklifi İrəvan tərəfindən də qəbul edilib və bu xüsusda qeyd etmək olar ki, artıq prosesin başlanğıcına start verilib. Daha dəqiq desək, Ermənistanın kənara qaçması üçün nə əlavə fürsəti, nə də atmağa hər hansı xilas addımı da qalmayıb...

Bu baxımdan da qeyd edə bilərik ki, Azərbaycan tərəfindən irəli sürülən sülh təklifi əsasında sivil dövlətlərin qonşuluq münasibətləri əsas olaraq götürülüb. Təbii ki, kənarda qalmaqdansa müxtəlif geosiyasi və iqtisadi əhəmiyyətlər daşıyan layihələrdə iştirak etmək Ermənistan üçün daha münbit seçimdir. Onun zatən başqa yolu da yoxdur. Və o da əbəs deyil ki, Nikol Paşinyan bugünlərdəki çıxışında həmin maraqların realizəsi üçün Azərbaycanın təkliflərini qəbul etməkdən başqa çarəsinin olmadığını açıq şəkildə etiraf edib. SİTAT: "Əgər biz Azərbaycanla sülh bağlamasaq, o zaman yeni müharibə başlayacaq və beynəlxalq ictimaiyyət bizə kömək etməyəcək. 2020-ci ildəki səhvləri təkrarlamağa hazır deyiləm".

Məhz bu fonda Prezident İlham Əliyev aprelin 12-də keçirdiyi müşavirəsində qeyd etdi ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında aprelin sonuna qədər təmasın əldə olunmasına dair razılıq əldə edilib və bu, sevindirici haldır.

Düzdür, kapitulyasiyaya uğramasına baxmayaraq, Ermənistan hələ də müxtəlif çək-çevirlərlə öz səmərəsi üçün nə isə "qoparmağa" cəhdlər göstərir, amma etiraf edək ki, həmin "cəhdlərin" gerçək maraqlara söykənməsi də inandırıcı görünmür. Misal üçün, qənaətə gələ bilərik ki, erməni rəhbərliyi bu kimi vasitələrlə ona qarşı çıxış edən bir qism revanşçıların gözlərindən pərdə asmağa çalışır. Üzdə Bakının səbrini tükəndirə biləcək bəyanatlar verilsə belə daxildə hər şey başqa yöndə inkişaf edir.

Lakin proseslər göstərir ki, Cənubi Qafqaz regionunda yeni sülh erasının başlanmasına doğru addımlar atılır və bütün bunların təməlində dayanan əsas faktor məhz Azərbaycan dövlətinin və Prezidentinin qətiyyəti, siyasəti və iradəsi dayanmaqdadır. Torpaqlarımızın 44 günlük müharibədə düşməndən azad edilməsi isə sülhün əldə edilməsinə doğru istiqamət alıb və bu reallıqda da qalib məhz Azərbaycandır.

# Qida zəhərlənməsi nədir və necə qorunaq?

*Qida zəhərlənməsi mikroorqanizmlər və ya bakterial toksinlər tərəfindən xarab olan qidaların istehlakı nəticəsində baş verir. Qida zəhərlənməsi üçün tipik simptomlar mədə ağrısı, ishal və qusmadır. Yüngül zəhərlənmələr, adətən, bir neçə gün ərzində öz-özünə sağalır. Ağır hallarda isə zəhərlənənlər xəstəxanada müalicə edilməlidir.*



## Qida zəhərlənməsinin səbəbləri nələrdir?

Qida zəhərlənməsi mikroorqanizmlər və ya onların toksinləri ilə çirklənmiş qidaların istehlakı nəticəsində baş verir. Qida məhsullarının çirklənməsinin ən mühüm səbəbi istehsal, daşıma, saxlama və ya emal zamanı kifayət qədər gigiyena qaydalarına riayət edilməməsidir.



**Qida zəhərlənməsini üç qrupa bölmək olar:**

## Bakterial qida zəhərlənməsi

Qida zəhərlənməsinin ən çox yayılmış törədicisi bakterial toksinlərdir. Bakterial qida zəhərlənməsi iki şəkildə baş verə bilər:

Bakterial toksinlərlə çirklənmiş qidalar istehlak edildikdə, bu toksinlər qida zəhərlənməsinə səbəb ola bilər.

Tərkibində bakteriya olan qidaları qəbul etdikdən sonra bu bakteriyalar orqanizmdə toksinlər ifraz edərək zəhərlənməyə səbəb ola bilər.

Ən çox bakterial qida zəhərlənməsinə səbəb olan mikroorqanizmlərə Salmonella, Campylobacter, Escherichia coli və Listeria daxildir. Bu bakteriyalar əsasən heyvan mənşəli qidalardan ötürülür.

## Qeyri-bakterial qida zəhərlənmələri

Bakterial olmayan qida zəhərlənməsinin ən çox görülən səbəbləri arasında :

zəhərli göbələklər

parazitlər

ağır metallar (arsen, qurğuşun, kadmium)

heyvan toksinləri ehtiva edir.

## Qida zəhərlənməsinin əlamətləri hansılardır?

Qida zəhərlənməsinin simptomları səbəbə görə fərqli ola bilər. Bununla belə, demək olar ki, həmişə baş verən bəzi ilkin simptomlar var. Qida zəhərlənməsinin bu ilk əlamətləri adətən ürəkbulanma, qusma və ishal şəklində olur. Bu simptomlar tez, adətən, bakterial toksin bədənə daxil olduqdan sonra bir neçə saat ərzində görünməyə başlayır. Lakin bu zəhərlənmə əlamətləri, adətən, bir neçə gün ərzində yox olur. Qida zəhərlənməsi faktorlarından biri olan stafilokokk bakteriyasının ifraz etdiyi "stafilokok toksinləri" adətən bir gün diskomfort yaradır. Bu müddətin sonunda orqanizm toksinlərdən təmizlənir və simptomlar aradan qalxır.

Qida zəhərlənməsinin simptomları, adətən, çox şiddətli deyil və müalicə olunmasa belə bir neçə gündən sonra öz-özünə yox olur. Ancaq bəzən şiddətli qusma və qanlı ishal kimi ağır təzahürlərlə ciddi zəhərlənmə ola bilər. Şiddətli simptomların olması halında dərhal tibb müəssisəsinə müraciət etmək vacibdir.

## Qida zəhərlənməsinə necə diaqnoz qoyulur?

Qida zəhərlənməsinin diaqnozunda xəstədən alınan tarix son dərəcə vacibdir. Həkim xəstədə görülən simptomları və şikayətləri və onların nə qədər davam etdiyini soruşacaq. Qida zəhərlənməsindən şübhələnirsinizsə, həkim o, simptomların başlamasından bir neçə saat əvvəl hansı qidaları qəbul etdiyinizi dəqiq bilmək istəyəcək. Sonra xəstəni müayinə edərək bədən istiliyi, qan təzyiqi, nəbz və ümumi vəziyyət haqqında məlumat alır.

Bakterial patogenlərin, onların toksinlərinin və ya qanda, zərdabda və ya nəcisdə olan digər toksinlərin diaqnozu əsasən laboratoriya testləri ilə mümkündür. Lakin qida zəhərlənmələri və onun diaqnostikasında laborator müayinələrdən çox istifadə olunmur.

Hər birimiz həyatımızda ən azı bir dəfə qida zəhərlənməsi ilə qarşılaşmışıq. Bakterial toksinlər qida zəhərlənməsinin ən çox yayılmış səbəbidir. Xüsusilə, bəzi qidalar bu baxımdan çox daha təhlükəlidir və bu qidalar qəbul edildikdən sonra bəzi bakteriyalar orqanizmdə toksinlər ifraz edərək zəhərlənmələrə səbəb olur. Zəhərlənən mikroorqanizmlərə salmonella, campilobakter, escherichia coli və listeria daxildir.

## Bu qidalar daha çox zəhərlənməyə səbəb olur:

**1. Quş əti**

Toyuq, ördək, hinduşka kimi quşlar qida zəhərlənməsi baxımından təhlükəlidir. Bu vəziyyətə adətən quşların bağırsaqlarında və tüklərində rast gəlinən iki növ bakteriya, kampilobakter və salmonella səbəb olur. Bu bakteriyalar teztez kəsim zamanı təzə əti çirkləndirir və ət yaxşı bişirilməsə, canlı qalaraq zəhərlənmələrə səbəb olur. Buna görə də, zəhərlənmə riskini azaltmaq üçün əti yaxşıca bişirin. Bu, mövcud olan bütün zərərli bakteriyaları yox edəcək.



**2.** Tərəvəz və yarpaqlı göyərti

Tərəvəz və yarpaqlı göyərti, xüsusilə də yaxşı yuyulmadan çiy yeyildikdə, qida zəhərlənməsinə səbəb olur. Bu, xüsusilə kahı, ispanaq, kələm, kərəviz və pomidorda bir sıra qida zəhərlənməsinə şərait yaradıb.

Odur ki, zəhərlənmə riskinizi azaltmaq üçün tərəvəz və göyərtiləri yeməkdən əvvəl yaxşıca yuyun. Həmçinin, əvvəlcədən hazırlanmış və otaq temperaturunda saxlanılan salatları yeməkdən çəkinin.

**3. Balıq**

Düzgün temperaturda saxlanmayan balıqlar bakteriyaların yaratdığı toksin olan histaminlə çirklənir. Bu zəhərlənmədə ürəkbulanma, xırıltı, üzün və dilin şişməsi müşahidə edilə bilər.

**4. Düyü**

Dünya əhalisinin yarıdan çoxunun ən əsas qidalarından biri olan düyü, bacillus cereus səbəbiylə yüksək riskli qidadır. Bu bakteriya düyü bişdikdən sonra böyüyə və çoxala bilər. Ona görə də düyü bişən kimi dərhal istehlak edin və qalanını soyuducuda saxlayın.

**5. Delikates məhsulları**

Vetçina, pastırma, salam və kolbasa kimi delikates məhsulları qida zəhərlənməsi mənbəyi ola bilər. Lakin unutmaq olmaz ki, bütün ətlər düzgün bişirilmədikdə və saxlanmadıqda qida zəhərlənməsi riski daşıyır. Bu səbəbdən ət məhsulları bişməzdən əvvəl yaxşı saxlanılmalı və bişdikdən dərhal sonra istehlak edilməlidir.

**6.Yumurta**

İnanılmaz dərəcədə qida dəyərinə malik olan yumurta çiy və ya az bişmiş halda istehlak edildikdə asanlıqla zəhərlənməyə səbəb ola bilər. Bunun səbəbi, yumurtanın həm qabığı, həm də içini çirkləndirəcək salmonella bakteriyası daşıya bilməsidir. Qabıqları çatlamış və ya çirkli yumurtaları istehlak etməyin.

ARAŞDIRMA

*Ardı Səh. 12*

# Qida zəhərlənməsi nədir və necə qorunaq?





Əvvəli-Səh-11

**7. Meyvələr**

Təzə və dondurulmuş giləmeyvə, o cümlədən moruq, böyürtkən, çiyələk, qaragilə də qida zəhərlənməsinin ümumi mənbəyidir. Konservasiya üçün yeməkdən əvvəl qovun və qarpızın qabığını yuyun, kəsilən kimi yeyin və ya soyuducuya qoyun.

SİA məsələ ilə bağlı araşdırma apararaq qida üzrə ekspertlərin fikirlərini öyrənib.



**AİB sədri Eyyub Hüseynov:** "Qida təhlükəsizliyinə dair dövlət proqramına nəzər yetirsək, onun ikinci hissəsində dünyada zəhərlənmələrinin statistikası göstərilir. Dünyada zəhərlənmə və zəhərlənmədən ölənlərin sayının statistikasına uyğun Azərbaycanla tənasüb qurdum. Məlum oldu ki, orta hesabla Azərbaycanda bir ildə 420 nəfər zəhərlənmədən dünyasını dəyişməlidir. Əlbəttə, biz bunu arzu etmirik. Sadəcə olaraq, dünya praktikasına uyğunlaşdırdıq.

Bütün dünyada zəhərlənmələr, ölənlər var. Bütün dünyada problem əbədi bir problemdir daim olub, olacaq. Lakin AQTA-dan öncə qidanın təhlükəsizliyinə Səhiyyə Nazirliyi nəzarət edirdi. Səhiyyə Nazirliyi həm bütün sənaye üsulu ilə istehsal olan mallara sertifikat verir, həm də əhalinin sağlamlığı keşiyində dururdu. Zəhərlənən insanlar isə birbaşa Səhiyyə Nazirliyinin qurumlarına müraciət edirdi.

25 il ərzində mən bir dəfə də görməmişəm ki, Azərbaycan həkimi hansısa bir şəxsin nədən zəhərlənməsi barədə bir sənəd versin. Çünki Azərbaycan həkimi verilən sertifikatdan qorxur. Analoji məsələ indi də AQTA-da cəmləşib. Sertifikat verən orqanla qidanın təhlükəsizliyini təmin edən orqan bir əldə birləşibdir. Biz daim demişik ki, sertifikat verən orqan ayrı olmalıdır və verdiyi sertifikatların məsuliyyətini daşımalıdır.

AQTA-da hər iki qurum bir yerdə olduğu üçün maraqlar konflakti var və yenə də zəhərlənmələr gizlədilir. Mən 25 ildir istehlakçı hüquqlarını qoruyan bir şəxs kimi görürəm ki, zəhərlənmələrin əksəriyyəti insanların özlərinə yıxırlar. Yəni, malı sən özün evdə hazırlamısan. Biz hələ görməmişik ki, sənaye üsulu ilə həll olunan bir mal sahibi istehlakçıya kompensasiya versin və yaxud məhkəmə qarşısına dursun və s. Ona görə də vəziyyəti dəyişmək lazımdır. Mütləq qida təhlükəsizliyi agentliyindən sertifikat verən orqan ayrılmalıdır. Sertifikat verən orqan öz üzərinə məsuliyyət götürməlidir və sertifikat verən orqanla qida təhlükəsizliyini təmin edən orqan bir-birinə abonentlik etməlidir.

Statistikaya fikir versək görərik ki, bəli AQTA-da vəziyyət keçəndən sonra, yəni Səhiyyə Nazirliyindən alınıb keçəndən sonra burada da statistika nisbətən qalxıbdır. Qidadan zəhərlənib ölənlərin sayını əvvəl Səhiyyə Nazirliyinin vaxtında ildə 1-2 nəfər deyərdilər. İndi isə 3-4 nəfərə çatıbdır və mən əminəm ki, son zəhərlənmədə deyirlər ki, toyuq budundan zəhərlənibdir, hansısa rayonda olub. Əminəm ki, son nəticədə çıxacaq ki, istehlakçıların özləri günahkardır. Necə ki, bu yaxınlarda dönərdən zəhərlənmə oldu və məlum oldu ki, dönər ətinin heç bir günahı yoxdur. İstehlakçı özü günahkardır. Bir sözlə, ölən günahkardır prinsipi ilə işlər gedir.

AİB olaraq biz bununla qətiyyən razı deyilik. Mütləq müstəqil ekspertiza olmalıdır. Müstəqil ekspertizanın sənədi tanınmalıdır. Çox təəsüf ki, bu yoxdur və AQTA daha rasional iş görməlidir. AQTA kütləvi informasiya vasitələri ilə, cəmiyyətlə çox effektli işləməlidir.

AİB sədri olaraq mən orada, İctimai Şurada təmsil olunuram. Hər səfər İctimai Şurada məsələni qaldırıram və təəssüflər olsun ki, AQTA kütləvi informasiya vasitələrində gedən prosesləri ya izləmir, ya da izləmək istəmir. Bu ölkədə qidanın təhlükəsizliyinin təmin olunmasında düşünürəm ki, jurnalistlər daha çox iş görür, nəinki AQTA".



**Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev:** "Qida zəhərlənmələrinin müxtəlif səbəbləri var. Xüsusilə, yüksək risk qrupuna aid süd və süd məhsulları, südlü şirniyyatlar, dondurma və bir çox qidaların saxlanma qaydalarına düzgün riayət etmədikdə zəhərlənməyə səbəb ola bilir.

Qida zəhərlənmələri daha çox yaz və yay aylarında müşahidə olunur. Anidən başlayır, bulantı, qusma, qarın ağrıları, ishal, qızdırma kimi simptomlarla özünü göstərir. Qida zəhərlənməsi əsasən şübhəli qida qəbulundan sonra 1-24 saat aralığında başlayır və 2-3 günədək sağala bilir. Ancaq bəzi hallarda dərmanla müalicəyə də ehtiyac yaranır. Xüsusilə, ishal zamanı orqanizm çox maye itirdikdə, maye itkisi bərpa olunmalıdır. Əgər bulantı və qusmalar səbəbilə maye qəbul çətinləşərsə, damar yolu ilə maye verilməsi tövsiyə edilir. Qida zəhərlənməsində ishal halı keçənədək bağırsaq funksiyasını tənzimləmək üçün lifli qidaları qəbul etməmək lazımdır. Antibiotiklər və ishal halını dayandırmaq üçün ishal kəsici dərmanların istifadə olunması xəstəlik əmələ gətirən mikroorqanizmlərin bağırsaqda qalma müddətini artırdığı üçün tövsiyə olunmur. Xüsusən, əlamətlər ortaya çıxdıqdan sonra ilk 6 saat ərzində bundan uzaq durmaq lazımdır. Bu dərmanlar ancaq həkim tövsiyəsi ilə qəbul oluna bilər.



Botulizm və ya ecoli infeksiyası kimi hallarda təcili olaraq xəstəxanaya müraciət olunmalıdır. Qida zəhərlənməsi əlamətləri çox vaxt 2-3 gün müddətində özlüyündən keçir və hər hansı bir müalicəyə ehtiyac duyulmur. Bu müddətdə bol miqdarda su və yağsız maye qəbul etmək itirilmiş mayenin bərpa olması üçün vacibdir.

Qida zəhərlənməsi 24-48 saat ərzində özlüyündən keçməzsə, həkimə müraciət olunmalıdır.

Çox vaxt qida zəhərlənməsi yüngül olur və yuxarıda da qeyd etdiyimiz kimi, bir neçə günə keçir. Ancaq bəzi qida zəhərlənmələri çox şiddətli və ağrılı ola bilir. Hər bir halda qida zəhərlənməsi əlamətləri müşahidə edildikdə, həkimlə məsləhət etmək vacibdir.

Qida zəhərlənməsinin qarşısını yeməklərin hazırlanması və saxlanması zamanı müəyyən qaydalara riayət edərək ala bilərik. Yemək hazırlayarkən əllər, istifadə edilən mətbəx avadanlıqları yaxşıca yuyulmalı və təmizlənməlidir. Yemək düzgün isidilməli, soyuması üçün uzun müddət otaq temperaturunda saxlanmamlı və soyuducuya qoyulmalıdır. Yumurta, ət, toyuq, balıq kimi dəniz məhsulları, süd və süd məhsulları kimi tez xarab olan qidaları bişirdiyiniz və istədiyiniz zaman bunların təzə olduğuna diqqət edin. Konserv qutularında olan qidaların təzə olmasına mütləq diqqət edin. Botulizm dediyimiz və çox təhlükəli bir qida zəhərlənməsi zamanı zərərli orqanizmlər qaz çıxmasına səbəb olur və bu zaman bakteriyalarla yoluxmuş qida konservlərinin qapaqları və qutuları şişir. Bu baxımdan, qapaqları şişmiş, əzilmiş, açdığınız zaman içindən hava çıxan, qapağından hava daxil olan qidalardan qəti şəkildə uzaq durmalıyıq.

Tez xarab olmağa meyilli qırmızı ət, toyuq və balıq kimi qidaları bişdikdən sonra otaq temperaturunda bir neçə saatdan çox saxlamaq olmaz. Məsələn ət yeməyi bişdimi ya yeyilməli, ya da soyuducuda saxlanmalıdır. Üstün örtüm milçək qonmasın, ertəsi günədək mətbəxdə qalsın, deyə saxlamaq qidanın xarab olmasına və qida zəhərlənməsinə səbəb ola bilər. Qidalar otaq temperaturunda çox qaldıqda mikroorqanizmlər çoxlamağa başlayır və nəticədə qida zəhərlənməsinə səbəb ola bilir.

Həmçinin meyvə və tərəvəzlərin yetişdirilməsi əsnasında heyvan və insan nəcsi bulaşmış sularla sulanması, qidaların hazırlanması əsnasında təmiz olmayan əllərlə təmas, çiy əti kəsmək üçün istifadə olunan eyni bıçaq və taxtanı, tərəvəzləri də doğrayarkən istifadə etmək də qida zəhərlənmələri üçün zəmin hazırlayır".

**Qida üzrə baş mütəxəssis**



**Ağa Salamov:** "Vaxtından əvvəl yetişdirilən meyvə və tərəvəzlər qida zəhərlənməsi verə bilir. Çünki toksin şəklində insan orqanizminə yığılır. Havaların da isti keçməyi yeni mikrobioloji çirklənməyə məruz qalan qidalar səbəbilə də insan orqanizmində bəzi fəsadlara yol açır. Bunlardan biri də zəhərlənmələrdir.

Havaların isti keçdiyini nəzərə alaraq qida məhsullarını az şəkildə alıb istehlak etmək lazımdır. Yəni yedikləri qədər alsınlar. Bura ən çox da riskli məhsullar olan toyuq, balıq və ət daxildir.

Kəsimdən sonra saatlarla havada asılan ət almasınlar. Əti soyuducudan tələb etsinlər və 2 saatdan gec olmayaraq emal prosesini bitirib bişirib yesinlər. Bəzən olur ki, istehlakçı aldadılır. Yəni vaxtı keçmiş məhsulları saxta etiketlə satırlar. Bu da qida zəhərlənməsinə səbəb olur.

Onu da qeyd edim ki, vaxtından tez yetişən çiyələk və digər meyvələr həm torpağı, həm yeraltı suları, həm də qidanı zəhərləyir. Bu, birmənalı olaraq zəhərli dərman vasitəsidir. Bu, insan orqanizmi üçün müəyyən fəsadlara yol açır.

İnsanlara səslənirəm ki, diqqətli olsunlar. Hər bir meyvə-tərəvəzi israf etməsinlər. Təzə-təzə alıb yesinlər".

***Ayşən Vəli***




***Artıq iki ildən çoxdur ki, COVID-19 pandemiyası ilə bərabər yaşayırıq. Bütün dünya ölkələri bu pandemiyanın nə vaxt sona yetəcəyini səbirsizliklə gözləyir. Amma unutmamalıyıq ki, sözügedən virusla birgə yaşamağı öyrənməliyik. Hər dəfə yoluxma sayının aşağı düşməsi bizdə ümidlər artırmış olsa da, sonrakı mərhələlərdə yenidən iki rəqəmlinin üç və dörd ilə əvəzlənməsinin şahidi olmuşuq. Təbii ki, hər an bu xəstəliyə yoluxa biləcəyimizi düşünməliyik və bunun üçün istənilən yerdə tələb olunan əməllərə riayət etməyimiz vacib məsələdir.***

# Koronavirusun yeni ştammı: pandemiya sona yetməyib

## *İlham Əliyev: "Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq"*






İlk günlərdən dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı pandemiyaya qarşı mübarizədə hər kəsi həmrəy olmağa səslədi və hər bir insan tələb olunan qaydalara əməl etməyə vətəndaş olaraq borcludur. Pandemiyanın dünya ölkələrində "hökmranlıq" etməyə başladığı zamandan yeni ştammlar peyda oldu. Son bir neçə mutasiyada virusun yoluxuculuğunun zəiflədiyini şahidi olduq və törətdiyi xəstəliyin ağır gedişatına çox nadir hallarda təsadüf etdik.

### AZƏRBAYCAN VƏTƏNDAŞI ÇAĞIRIŞLARA LAQEYD QALMADI

Heç şübhəsiz ki, COVID-19 infeksiyası əleyhinə vaksin olunmaq əsas məsələlərdəndir. Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 13 milyonu ötüb. Son statistik rəqəmlərə nəzər salsaq görərik ki, Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 13 milyon 558 min 968, birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5 milyon 331 min 706, ikinci mərhələ üzrə 4 milyon 833 min 723, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 159 min 255, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 234 min 284-dür. Bu rəqəmlər onu göstərir ki, Azərbaycan vətəndaşı pandemiya və çağırışlara laqeyd deyil. Məsuliyyət hiss insanları vaksinasiya prosesinə cəlb edib.

Azərbaycanda yeni növ koronavirus COVID-19 infeksiyasına yoluxanların sayının kəskin aşağı düşməsi ürəkaçandır. Son günlərdə bu iki rəqəmliyə enib. Bu rəqəm də ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlərin nəticəsidir. İndiyədək ölkədə ümumilikdə 792 mindən artıq nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. 9 min 700-dən artıq insan vəfat edib ki, bu da kifayət qədər böyük rəqəmdir. Amma dünya ölkələri ilə nisbətdə bir o qədər də yüksək göstərici deyil. Bildiyimiz kimi, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses "2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası" çərçivəsində aparılır.

### ÖTƏN HƏFTƏ DÜNYADA İKİ İL ƏRZİNDƏ ÖLÜM HALI ƏN AŞAĞI GÖSTƏRİCİ OLUB

Son göstəricilər bizdə arxayınçılıq yaratmamalıdır. Peyvəndlənmə əhatəsi əksər ölkələrdə aşağıdır və infeksiyanın ötürülmə səviyyəsi də yüksək olaraq qalmaqdadır, ÜST-ün COVID-19 ilə bağlı fövqəladə vəziyyətə dair iclasında baş direktor dünyada ölüm hallarının sayının azalması meyilinə (ötən həftə ölüm halları barədə məlumatların sayı iki il ərzində ən aşağı göstərici olub) baxmayaraq, pandemiyanın sonu hələ çox uzaqdadır. Baş direktorun bildirdiyi kimi, pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması infeksiyanın genişlənməsinə imkan verir ki, bu da yeni ştammların yaranma riskini gücləndirir.




ÜST rəhbəri pandemiyanın indiki mərhələsində olduqca mühüm əhəmiyyət kəsb edən üç amilə diqqəti çəkib ki, onlardan birinci amil kimi əhalinin sosial izolyasiyadan, məktəblərin bağlanmasından və iş yerləri ilə bağlı nizamsızlıqdan yorulmasını göstərib.

Yeni ştamlar peyda olur və insanlar ehtiyatlı olmalıdır. Artıq Belçikada koronavirusun yeni variantı - "omikron" BA.4-ə yoluxma faktı qeydə alınıb. Koronavirus infeksiyasının yeni versiyası BA.4, eləcə də BA.5 artıq Cənubi Afrika, Botsvana, Almaniya, Danimarka və Böyük Britaniyada aşkar edilib. Yaponiyada isə koronavirusun yeni "omikron-XE" ştammına ilk yoluxma halı qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatı "omikron" ştamminın XE xəttini pandemiya tarixi ərzində ən yoluxucu növ elan edib. Bu gün ölkəmizdə lazımı tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və bir çox yumşaldılmalar olub. Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Kollektiv immunitet ya vətəndaşların virusa yoluxub sağalması, ya kütləvi vaksinasiya vasitəsilə mümkündür.

Ölkəmizdə vətəndaşlara vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer", "Sinovac" kimi peyvəndləri istifadə edilir. Son dövrün statistikası və mütəxəssislərin gəldiyi qənaətə əsasən, COVID-19 testi pozitiv olanların 90 faizindən çoxu peyvənd olunmamış şəxslərdir. Mütəxəssislərin fikrincə, elmi araşdırmaların nəticələrinə əsasən müəyyən olunub ki, peyvəndləndikdən sonra virusa yoluxan şəxslərdə virus yükü əhəmiyyətli dərəcədə aşağı olub.

### PLANETİMİZİN SAKİNLƏRİNİN ÜÇDƏBİRİ VAKSİNİN BİRİNCİ DOZASINI BELƏ ALMAYIBLAR

Ölkəmizdə COVID-19-la mübarizə dövlətimizin maliyyə resursları hesabına həyata keçirilir. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı edib. Bütün bunlarla yanaşı olaraq Azərbaycan dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərib. Bütün bunlarla yanaşı, qeyd olunmalıdır ki, Azərbaycan pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan bir sıra qlobal təşəbbüslər irəli sürüb. Cənab Prezidentin qeyd etdiyi kimi, "2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı Mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi". Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə Görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi idi. Dövlət başçısı inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə, ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırmışdı.

Xatırladaq ki, vaksinlərin ədalətli bölgüsü və əlçatanlığının təmin edilməsi məqsədilə yaradılmış COVAX beynəlxalq təşəbbüsünə ilk qoşulan və dəstək verən dövlətlərdən biri də Azərbaycan oldu. Əlbəttə ki, peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır. ÜST-ün məlumatına istinadən, yüksək gəlirə sahib ölkələrin vətəndaşları artıq dördüncü dəfə peyvəndləndiyi halda, planetimizin sakinlərinin üçdəbiri vaksinin birinci dozasını belə almayıblar. Afrikada isə əhalinin 83 faizi peyvəndlənməyib.

Azərbaycanda həyata keçirilən tədbirlər deməyə əsas verir ki, vətəndaşlarımızın sağlamlığının qorunması dövlətimizin daim diqqətindədir. İstənilən halda yarana biləcək növbəti dalğalardan da hər zaman olduğu kimi, minimum itkilərlə çıxmaq gücündədir. Dövlət başçısının bildirdiyi kimi, "Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Erməni klounadası nə zaman bitəcək?

## *Yaxud, revanşist deputatların Qarabağ sərgüzəştlərinin puç olması növbəti proseslərin siqnalıdır*

***Məlum olduğu kimi, Ermənistan parlamentinin revanşist hissləri ilə alışıb-yanan bir qrup müxalifətçi deputatları parlamentin iclaslarına qatılmayacaqlarını bəyan edərək, bunun yerinə Qarabağa, Xankəndiyə gedəcəklərini, separatçı rejimin "deputatları" ilə görüşlər keçirəcəklərini bəyan etmişdilər. Daha dəqiq desək, parlamentin Daşnaksütyun fraksiyasından olan vitse-spikeri İşxan Saqatelyan "Ermənistan" və "Şərəfim var" fraksiyasının deputatlarına belə bir təşəbbüs təklifi irəli sürdü və onlar da həmin təklifləri razılaşaraq Xankəndiyə gedəcəklərini bildirdilər. Əsas səbəb kimi isə Ermənistan hakimiyyətinin Azərbaycanın irəli sürdüyü beş təklifi qəbul etməsi və bu təkliflər ətrafında müzakirələrə başlaması göstərildi.***



### Bakının RSK komandanlığına etdiyi çoxsaylı və haqlı iradlarından sonra nəhayət ki, sülhməramlılar həmin iradlardan doğru nəticə çıxarmağa səy göstərdilər

Lakin erməni revanşist deputatları saydıqlarını sayarkən, fələyin onlar üçün hansı sürpriz hazırladığndan çox yəqin xəbərsiz olublar. Məhz Bakının rəsmi icazəsi olmadan, eləcə də öncədən etdiyi xəbərdarlığından sonra Qarabağda müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingenti (RSK) erməni deputatlarının Azərbaycan ərazisinə daxil olmalarına izn vermədi. Bu arada onu da qeyd edək ki, Bakının RSK komandanlığına etdiyi çoxsaylı və haqlı iradlarından sonra nəhayət ki, sülhməramlılar həmin iradlardan doğru nəticə çıxarmağa səy göstərdilər və bu faktı məhz revanşist deputatların qeyri-qanuni şəkildə ərazilərimizə buraxılmamaları ilə əlaqələndirə bilərik.

Ancaq bütün bunlardan sonra Ermənistan XİN dərhal saçını-başını yolmağa başladı ki, sən demə erməni deputatlar Qarabağ ərazisinə buraxılmalıymışlar və hətta onların bu ərazilərə buraxılmamaları hansısa hüquq pozuntusuymuş, üçtərəfli bəyanatda ziddiymiş və s...

Gəlin erməni XİN-nin həmin bəyanatına diqqət yetirək və növbəti mülahizələrimizi irəli sürək. SİTAT: "Bu addım 2020-ci ilin 9 noyabr (görünür, ermənilər 10 noyabr tarixindən necə qıcıqlandıqlarını və qorxduqlarını onu 9 noyabr tarixi ilə əvəzləməkləri ilə etiraf edirlər-R.R.) bəyanatında göstərilən və Dağlıq Qarabağın Laçın dəhlizi vasitəsi ilə Ermənistanla maneəsiz əlaqəsini əks etdirən bəndə zidlik təşkil edir. Bəyanatdakı bütün tərəflər (burada artıq Rusiyaya da kəllə atırlar-R.R.) onun hərfinə və ruhuna, həmçinin üzərlərinə götürdükləri öhdəliklərinə əməl etməlidirlər".

### Görünür, sərsəm iddiaları irəli sürən erməni tərəfi oxumaq, mütaliə etmək qabiliyyətlərini də itiriblər

Beləliklə, Ermənistan respublikasının XİN-i Azərbaycan ərazisində müvəqqəti yerləşmiş RSK-nı erməni deputatlarının Azərbaycana daxil olmalarına əngəl yaratmaqda ittiham edir və Bakı ilə "əlbir" olmasına eyham vurur (?!)

Görünür, həmin sərsəm iddiaları irəli sürən erməni tərəfi oxumaq, mütaliə etmək qabiliyyətlərini də itiriblər. Çünki adıçəkilən üçtərəfli bəyanatda bilavasitə Laçın dəhlizi ilə bağlı "maneəsiz" ifadəsi mövcud deyil və orada açıq-aydın yazılıb ki, dəhliz yalnız (!!!-R.R.) sadə vətəndaşların istifadəsi üçündür, ermənilərin rəsmi məmurları, xarici diplomatlar üçün deyil!

Yaxud, belə bir arqumentlə erməni tərəfinə xatırlada bilərik ki, "maneəsiz" ifadəsi məhz Zəngəzur dəhlizi ilə bağlıdır və Ermənistan XİN klounada ilə məşğul olmaqdansa, revanşist deputatların hayhəşirinə dəstək verməkdənsə, bu məsələlər barədə baş sındırsınlar.

### İrəvanın RSK-nı hədəfə almasını Moskvanın erməni tərəfinin minimal iştirakı ilə Zəngəzur dəhlizinin açılmasında maraqlı olması ilə də əlaqələndirə bilərik

Daha bir məqam: məsələ ondadır ki, biz son vaxtlar Rusiyayönümlü parlament müxalifətinin Ermənistanda "artsax" mövzusu ətrafında çoxsaylı təxribatçı cəhdlərini müşahidə edirik. Məsələn, qondarma rejimin əski parçasını Ermənistanın müxtəlif şəhərlərində qaldırmaqla və s...

Üstəlik, növbəti - Laçın təxribatına cəhd də bu sıradandır və buradan daha bir nəticə də hasil etmək olar. Məlumdur ki, baş nazir Nikol Paşinyanın Moskvaya səfəri gözlənilir və mövcud təxribat nümayiş etdirir ki, onun hökuməti proseslərdən rahatsızdır, eləcə də razılaşmalar yönündəki dinamikliyin marağında da deyil. Bəllidir ki, aprelin sonuna qədər erməni tərəfi sərhədlərin delimitasiyası ilə bağlı birgə komissiyanın işlək vəziyyətə gəlməsi istiqamətində qəti addımlarını atmalıdır və Azərbaycanın sülh sazişinin əldə edilməsi yönündə irəli sürdüyü beş təklifin realizə olunmasındakı fəaliyyətini reallaşdırmalıdır.

Nəticədə üç mühüm məsələ qalır - nəqliyyat dəhlizinin blokadadan çıxması, Ermənistan tərəfindən Qarabağın rəsmi şəkildə Azərbaycanın suveren ərazisi kimi tanınması, yəni delimitasiya prosesinin başlanılması və qanunsuz erməni silahlılarının bu ərazilərdən rədd edilmələri.

Əbəs deyil ki, hər iki mövzu ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev qəti sözünü deyib. Və o da əbəs deyil ki, artıq Moskvada da qəti şəkildə bəyan olunur ki, üçtərəfli bəyanatdakı bəndlərin həyata keçirilməsi vacibdir. Belə bir fonda İrəvanın RSK-nı hədəfə almasını Moskvanın erməni tərəfinin minimal iştirakı ilə Zəngəzur dəhlizinin açılmasında maraqlı olması ilə də əlaqələndirə bilərik.

### Prezident İlham Əliyev aprelin 12-də keçirdiyi müşavirəsində bu məsələyə toxunaraq, əslində, Bakının çox gözləməyə vaxtının olmadığını xatırlatdı, əks halda...

Qarabağın Azərbaycanın tərkibində delimitasiya olunması mövzusu isə artıq həll edilib, qalır onun rəsmiləşdirilməsinə ki, həmin prosesdə yalnız Ermənistan deyil, RSK da əməli fəaliyyətə keçməlidir. Hələlik, son erməni təxribatının qarşısının alınması yönündə RSK tərəfindən atılan addımı alqışlaya bilərik. Təbii ki, sonrakı proseslərdə yenidən Bakının maraqlarına zidd addımlar atılmazsa...

Ümid edək ki, bundan sonrakı proseslər də məhz üçtərəfli bəyanatda tələb edilən bəndlər əsasında aparılacaq və bu bəndlərdən biri və ən əsası - 4-cüsü hələ ki, realizə olunmur və Prezident İlham Əliyev aprelin 12-də keçirdiyi müşavirəsində bu məsələyə toxunaraq, əslində, Bakının çox gözləməyə vaxtının olmadığını xatırlatdı, əks halda, Ermənistan bundan sonra da dalana dirənəcək və sülhə məcburetmə prosesi üzərindəki mexanizm işə salınacaq.

**R.Rəsulov**

---

# "Xarizmatik lider olmadığını dəfələrlə göstərib"

***"Fransada prezident seçkiləri seçkidən öncə keçirilmiş ictimai rəy sorğularına uyğun şəkildə həyata keçirilir. Əvvəldən də vəd olunduğu kimi, əsas mübarizə hazırkı prezident Emmanuel Makron və Marine Le Pen arasında keçiriləcəyi gözlənilirdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.***

Onun sözlərinə görə, ehtimallar da özünü doğrultdu. Belə ki, heç bir namizədin mütləq səs çoxluğu ilə birinci turda qalib gəlməsi proqnozlaşdırılmırdı. Mən də öz şərhlərimdə davamlı olaraq bildirirdim ki, seçkilərin keçirilməsi ikinci tura qalacaq.

Maraqlıdır ki, Vətən müharibəsində Ermənistana böyük dəstək nümayiş etdirən Fransa tərəfi ilə münasibətləri qoruyub-saxlamaq istiqamətində Makronu dəstəkləmək əvəzinə, onlar digər müxalif qüvvələri dəstəkləmək yolunu tutublar. Eyni zamanda, namizədlər üzərində Fransada olan erməni lobbisi ilə böyük iş həyata keçirilib. Onlara siyasi, iqtisadi, mənəvi dayaq göstərilməsi prosesi də həyata keçirilib. Eyni zamanda Makronun hazırki durumda Avropanın hərbi, siyasi arxitekturasının qorunub, saxlanması baxımdan seçilməsi mühümdür. Digər tərəfdən Marine Le Penin seçilməsi də öz növbəsində yeniliklərə, islahatlara səbəb olacaq.

Nəzərə almaq lazımdır ki, Rusiya və Ukrayna hazırda çətin günlərini yaşayır. Müharibə ilk növbədə Ukrayna və Rusiyanın təhlükəsizlik mühitinə böyük zərbə vurub. Eskalasiyanın bütün Avropanı əhatə etməsi riskləri mövcuddur. Bu baxımdan Fransa birliyin təşviq olunması və vahid ideya ətrafında birləşmək üçün səylərini artırmalıdır.



Avropa İttifaqında lokomativ rolunu oynayan dövlətlər Fransa və Almaniyadır. Böyük Britaniyanın Avropa İttifaqından kənarlaşdırılması və müstəqil siyasət yürütməsi nəzərə çarpır. Daha çox Avropa İttifaqının siyasi iqtisadi yükü isə hazırda Fransa və Almaniyanın üzərindədir. Bu baxımdan Fransada prezident seçkiləri olması, liderin və Fransa dövlətinin başında duran şəxsin kimliyindən də çox şey asılıdır. Makrona qarşı kifayət qədər təzyiqlər var. Daxili və xarici siyasətdə səhvlərə yol verib və xarizmatik lider olmadığını dəfələrlə göstərib. Lakin hazırkı durumda Makronun seçilməsi sabitlik nöqteyi-nəzərdən böyük əhəmiyyət daşıyırsa, Marine Le Penin hakimiyyətə gəlməsi də dəyişiklikləri vəd edir".

**Səbinə Hüseynli**

---

# "Müxalifətə pul-para verib, qışqırdırlar"



"Sevinc kimi, Əli kimi adamlar böyük şairimiz Mirzə Ələkbər Sabirin məşhur satirik obrazları kimidirlər. Xüsusilə, onun "Millət necə tarac olur-olsun, nə işim var, Düşmənlərə möhtac olur-olsun, nə işim var" məşhur misralarındakı obrazların birbaşa özləri olduğunu desək, yanılmarıq". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifət buğdanı çoxdan yeyib cənnətdən çıxanlardandırlar: "Axı insan nə qədər ləyaqətini itirmiş olar ki, onun mənsub olduğu xalqın düşmənlərindən pul alıb, öz millətinə və dövlətinə qarşı əsassız ittihamlar səsləndirər? Hələ bu pulları verənlərin birbaşa erməni lobbisinin təsiri altında olduğunu nəzərə alsaq, artıq buna deyiləcək söz də tapmaq olmur. Siz düşünmək deyirsiniz, amma məncə artıq bunu heç düşünməyə də ehtiyac yoxdur. Belə adamların xaricdəki Azərbaycan və Türkiyə düşmənlərinin əllərində oyuncağa çevrildikləri isbatına ehtiyac olmayan aksiomdur. Onlar Azərbaycan əleyhinə təbliğat kompaniyasını da həmin qüvvələrin təsiri altında davam etdirirlər. Çünki əks-təqdirdə, milyonlar əllərindən çıxa bilər. Amma xalq çoxdan həqiqəti bilir. Əli Kərimli və onun ətrafında olanlar əsassız olaraq qışqır-bağır salırlar. Xarici qüvvələr sədaqəti ilə seçilən müxalifətə pul-para verib, qışqırdırlar. Ancaq uzağa gedə bilmirlər. Çünki boş qazanı danqıldadırlar".

**Gülyana**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb.*

# “Sosial dövlət” siyasəti son 4 ildə: nailiyyətlər, faktlar və reallıqlar

**II HİSSƏ**

**“Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” -Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev (2018-ci il 11 aprel tarixində andiçmə mərasimindəki çıxışından)**

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılaraq 2019-cu ilin may ayında açılışı olan DOST Agentliyi və Agentliyin DOST mərkəzləri sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların ən mühüm nailiyyətlərindən biridir. DOST Agentliyi və onun 1 saylı Bakı DOST mərkəzinin açılışı mərasimində dövlət başçısı ”Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək” deyə bildirib.



Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin (156 növdə xidmət) ”bir pəncərə”dən, innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Təsadüfi deyil ki, bu gün DOST konsepsiyası beynəlxalq səviyyədə də böyük maraq kəsb edərək yüksək dəyərləndirilir və Azərbaycanın DOST təcrübəsini öyrənməyə maraq göstərən ölkələrin sayı artır.

2022-ci ilin fevral ayında Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının fəxri fərmanına layiq görülən, DOST Agentliyinin bu günlərdə Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanması da DOST konsepsiyasının müasir dünyanın innovasiyalar sahəsində mühüm nailiyyətləri sırasında olduğunu göstərir. ”Texnologiya alətləri” kateqoriyasında sosial xidmətlərdə smart modelin tətbiqinə görə DOST Agentliyi 20 mindən çox səslə Avropanın nüfuzlu Mükafatına sahib olub. Təşkilata üzv Avropa dövlətlərinin DOST layihəsinə olan marağının göstəricisi kimi həmin səslərin 17 mini qeyd edilən dövlətlərdən gəlib. DOST bu gün Avropa Sosial Şəbəkəsi Şurasının Avropa İttifaqı üzvü olmayan yeganə dövlət qurumu, eyni zamanda şəbəkənin tədbir və müzakirələrinin fəal iştirakçısı olan yeganə MDB təmsilçisidir. Bu da DOST-a Avropada olan böyük marağı və onun uğurlu islahat təcrübəsi kimi qəbul edildiyini ehtiva edir.

Hazırda 5 DOST mərkəzi fəaliyyət göstərir və ötən dövrdə 800 mindən çox vətəndaş DOST xidmətlərindən faydalanıb. Bu xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi isə 98 faiz üzərindədir. ”Könüllü DOST proqramı” isə Azərbaycanda könüllük hərəkatının genişlənməsində önəmli rol oynayır və Avropa Sosial Şəbəkəsinin qeyd edilən müsabiqəsində də DOST Könüllülərinin fəaliyyətinə dair ”Dəyərləri birləşdir - bərabərliyə nail ol” adlı ərizəsi ”Möhtəşəm Heyət” kateqoriyasında Avropa müsabiqəsinin fiinalçısı olub. Onu da bildirək ki, DOST Agentliyi 4 istiqamət üzrə ISO sertifikatlarına da layiq görülüb.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkədə sosial infrastrukturun, o cümlədən sosial xidmət və reabilitasiya sisteminin davamlı inkişafına imkan yaradıb. 2018-ci ildən sonrakı dövrdə Nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, ən müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib, Qəbələdə də Uşaq Reabilitasiya Mərkəzi açılıb. Yaxın aylarda Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də açılacaq. Yeni reabilitasiya mərkəzlərinin açılması və bərpa sisteminin müasirləşdirilməklə imkanlarının artırılması reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 3 dəfə artırılaraq 30 minə çatdırılmasına imkan verir. Həmçinin son 4 ildə sosial xidmətlər, günərzi və icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi xeyli genişlənib. Sosial xidmət sahələrində daimi təkmilləşdirmələr də aparılıb və davam edir.

Əlilliyi olan şəxslərin cəmiyyətə fəal inteqrasiya imkanlarının artırılması ölkə Prezidentinin diqqət mərkəzində olmaqla aparılan sosial siyasətin hədəfləri sırasındadır. Bunun nəticəsidir ki, ölkəmizdə əlilliyi olan şəxslərin aktiv həyat tərzinə, bütün sahələrdə cəmiyyət həyatında fəal iştirak imkanlarına malik olmaları, yaradıcılıq potensiallarını dolğun şəkildə reallaşdıra və cəmiyyətə təqdim edə bilmələri üçün geniş miqyaslı işlər aparılır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə 22 oktyabr 2021-ci il tarixdə Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılması da bu istiqamətdə mühüm adddımlardan biri oldu. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Cənubi Qafqazda kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən belə bir ilk ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanının Azərbaycanda açılması əlilliyi olan şəxslərin və digər həssas əhali qruplarının yaradıcı potensialının inkişafına dəstək verilməsi istiqamətində dövlət tərəfindən fəal və məqsədyönlü siyasətin aparıldığını bir daha təsdiq edir. 121 nəfərlik auditoriumdan, 9 müxtəlif peşə-yaradıcılıq otağı və studiyasından, kitabxanadan, inzibati otaqlardan, yeməkxanadan ibarət olan Mərkəz əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialını ortaya çıxararaq cəmiyyətə təqdim etmək, onların istedad və inteqrasiyasına dəstək göstərmək, sosial-mədəni mühitin inklüziv çalarlarla daha da zənginləşməsinə xidmət edir.



Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təkcə son bir ildə əlilliyi olan şəxslərin əl işlərinin 10-dan çox satış-sərgisi, həmçinin əlilliyi olan şəxslərin XI Ümumrespublika Yaradıcılıq Sərgi-müsabiqəsi də təşkil olunub.

Prezident İlham Əliyevin tapşırıqları əsasında Azərbaycanda aparılan sosial islahatların mühüm bir istiqaməti dövlət sosial xidmətləri sahəsində e-texnologiyaların geniş tətbiqi, rəqəmsal müstəvidə əhali üçün proaktiv xidmətlər şəbəkəsinin, avtomatlaşdırılmış sistemlərə əsaslanan müasir, çevik və şəffaf, optimal idarəçiliyin yaradılmasıdır.

Son 4 ildə ölkədə əmək, məşğulluq, sosial təminat, sosial xidmət, əlillik, reabilitasiya, övladlığagötürmə və s. sahələrdə e-texnologiyaların geniş tətbiqi təmin edilib.

Mühüm innovativ uğurlardan biri olan, dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə yaradılan ”e-sosial.az” portalı ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s.) çıxış və 100-dən çox sosial xidmət növündən çevik rejimdə yararlanmaq imkanı verir. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 173 xidmətdən 110-u e-platforma üzərindən, o cümlədən 46-ı proaktiv qaydada göstərilir. Bu il isə Nazirlik daha daha 50-dən çox e-xidməti istifadəyə verəcək.

Təkcə ötən il ”e-sosial.az” portalına 9 milyon 452 min, nazirliyin e-xidmətlərinə 15 milyon 212 min müraciət qeydə alınıb. Son üç ildə Nazirliyin 30-dək e-arayış xidmətli yaradılıb ki, ötən il həmin xidmətlər vasitəsilə 570 minə yaxın e-arayış verilib. Hazırda Nazirliyin e-sistemlərinin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir və həmin qurumlar tərəfindən son bir ildə Nazirliyin informasiya bazalarına sorğu sayı 139 milyon olub.

Sosial sahədə innovativ yeniliklərdən biri kimi, ölkəmizdə 2019-cu ilin əvvəlindən pensiyaların, sonralar müavinət və təqaüdlərin e-qaydada, proaktiv təyinatı mexanizmləri qurulub. Ötən dövrdə 390 minə yaxın pensiya, müavinət və təqaüd təyinatı vətəndaşların müraciətinə və sənəd təqdim etmələrinə ehtiyac qalmadan, e-qaydada, proaktiv şəkildə aparılıb.

Əmək münasibətlərinin rəsmi qeydiyyatı ”Əmək müqaviləsi bildirişi” altsistemi üzərindən aparılır. Son illərdə qurulan ”Məşğulluq” altsistemi isə məşğulluq xidmətlərinin real vaxt rejimində çevikliyini, əlçatanlığını və effektivliyini təmin edir. ”Əmək münasibətləri və məşğulluq” altsistemi, e-DOST platforması, ”BACAR” virtual informasiya resursu, ”Elektron əmək birjası və yarmarkası” sistemi, ”İctimai işlər portalı” və s. də hazırlanır.

Prezident İlham Əliyevin tapşırıqları əsasında sosial sahədə ölkəmizdə aparılan islahatların uğurları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu Böyük Britaniyada keçirilən ”Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat” müsabiqəsinin ”2022-ci ilin Beynəlxalq Dövlət Qurumu” ali mükafatına layiq görülüb.

2022-ci ilin fevral ayında Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının fəxri fərmanına layiq görülən DOST Agentliyi isə bu günlərdə daha bir nüfuzlu mükafatı - Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanıb. Həmçinin 2019-cu ildə Azərbaycanın dörd sosial layihəsi (özünüməşğulluq proqramı, ünvanlı sosial yardım və əlillik təyinatı üzrə e-sistemlər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması tədbirləri) Beynəlxalq Sosial Təminat Assosiasiyasının ən yaxşı təcrübələr kimi xüsusi mükafat və təltiflərinə layiq görülüb.

Beləliklə, Prezident İlham Əliyevin 2018-ci il 11 aprel tarixində andiçmə mərasimində söylədiyi ”Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” sözləri davamlı sosial islahatlar nəticəsində əldə olunan mühüm nailiyyətlərdə öz əməli təsdiqini tapıb. Şübhə yoxdur ki, bundan sonra da Azərbaycan dövləti bu yolla inkişaf edəcək, əhalinin sosial rifahı dünya üzrə ən yüksək səviyyəyə çatacaq.

***Elçin***

SON SƏHİFƏ
Səs
14 aprel
2022-ci il

# “Bavariya” büdrədi, “Real” yarımfinalda!



*Futbol üzrə UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinin cavab görüşlərinə start verilib. İlk oyunda 3:1 hesablı qələbə qazanan "Real" "Çelsi"ni bu dəfə evdə qəbul edib.*

Qarşılaşmanın əsas vaxtı London klubunun 3:1 hesablı qələbəsi ilə başa çatdığı üçün əlavə vaxta ehtiyac duyulub. Burada daha 1 qol vuran ”Real” iki oyununun nəticəsinə əsasən yarımfinala yüksəlib.

”Bavariya” isə ilk matçda 0:1 hesabı ilə uduzduğu ”Vilyarreal”la doğma meydanda üz-üzə gəlib. Görüş 1:1 hesabı ilə başa çatıb. Bu nəticə ilə ”Vilyarreal” yarımfinala yüksəlib. ”Bavariya” isə gözlənilmədən mübarizəni dayandırıb.

# ŞOK: Dünya əhalisinin 52%-i bu ağrıdan əziyyət çəkir!

***Dünya əhalisinin 52%-i baş ağrısından əziyyət çəkir. SİA xarici mətbuata istinadən xəbər verir ki, məlumata görə, dünya əhalisinin 14 faizi miqrendən əziyyət çəkir. Norveç Elm və Texnologiya Universitetinin tədqiqatçıları baş ağrısının qlobal yayılmasını qiymətləndirmək üçün 1961-2020-ci illər arasında 357 nəşri təhlil ediblər.***



Araşdırma nəticəsində baş ağrısı hallarının yüzdə 26-nın gərginlik tipli baş ağrıları olduğu qeyd olunub. Onların 4,6 faizində ayda 15 və daha çox gün ərzində baş ağrısı olduğu müəyyən edilib. Ağrının 7%-i miqrendən qaynaqlanır. Qadınlarda kişilərə nisbətən daha çox görülür.

Tədqiqatın aparıcı müəllifi Lars Jacob Stovner aşağıdakı ifadələrdən istifadə edib:

”Biz başa düşdük ki, baş ağrısı pozğunluqlarının yayılması bütün dünyada yüksəkdir və müxtəlif ağrı növləri bir çox insana təsir edə bilər. Biz profilaktika və daha yaxşı müalicə yolu ilə bu nisbətləri azaltmağa çalışmalıyıq”.

Bu cür səylərin təsirini ölçmək üçün cəmiyyətdə baş ağrısının yayılmasının izlənilməsi lazım olduğunu vurğulayan Stovner, ”Araşdırmamız üsullarımızı necə təkmilləşdirəcəyimizi anlamağa kömək edir” dedi.

***Süsən Heydərova***

# Səudiyyəli astronom: “2030-cu ildə Ramazan ayı iki dəfə qeyd ediləcək”

***Səudiyyəli astronom Xalid əl-Zaqaqın sözlərinə görə, müsəlmanlar 2030-cu ildə bir ildə iki dəfə müqəddəs Ramazan ayının gəlişini qeyd edəcəklər. Bunun səbəbi İslam Hicri təqviminin ay dövrlərinə, Miladi təqvimin isə Yerin Günəş ətrafında dövr etməsi siklinə əsaslanmasıdır.***



AZƏRTAC-ın yazdığına görə, astronom tviter hesabında yerləşdirdiyi videoda bunu izah edib; iki təqvim arasındakı fərq Milad təqvimində Ramazan ayının hər 30 ildə bir dəfə təkrar olunacağını göstərir. Bu, sonuncu dəfə 1997-ci ildə, ondan əvvəl isə 1965-ci ildə baş verib. Beləliklə, Hicri 1451-ci ildə Ramazan ayı Miladi təqvimlə 2030-cu il yanvarın 5-də başlayacaq, həmin il dekabrın 26-da müsəlmanlar yenidən müqəddəs ayın gəlişini qeyd edəcəklər. Bu, müsəlmanların 2030-cu ildə təxminən 36 gün - Hicri 1451-ci il üçün 30 gündən ibarət tam ay və 1452-ci il üçün təxminən altı gün oruc tutması ilə nəticələnəcək.

Astronom bildirib ki, Hicri qəməri ili 354 və ya 355 gün davam edir, yəni 365 gün olan Miladi təqvimlə dəqiq uyğun gəlmir. Bu, həm də o deməkdir ki, Ramazan hər il müxtəlif fəsillərə düşür və təqribən 32 illik dövrələrlə davam edir.

# Mövsümündə yetişməyən çiyələyin zərərləri NƏDİR?

***“Meyvə və tərəvəzlərin yalnız mövsümündə yeyilməsi məsləhətdir. Məsələn, alça, çiyələk və s. hazırda bunlar parnik meyvələridir. Onlar satılsa da, əslində, tam yetişməyib". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Leyla Zülfüqarlı deyib.***



DİETOLOQ AÇIQLADI

Onun sözlərinə görə, banan isə sitrus meyvəsidir: ”Yeni mövsümündən asılı olmayaraq hər vaxt yeyilə bilər. Çünki banan giləmeyvələrdən fərqli olaraq bəlkə də nadir meyvədir ki, tərkibində protein hissəsi də çoxdur və orqanizmdə qələvi mühiti bərpa etdiyi üçün yəni, yeyilməsində fayda var. Kaliuma olan ehtiyacı biz banan yeyərkən ödəyirik.



Ümumiyyətlə, meyvələrin yeyilməsinin heç bir fəsadı yoxdur. Yalnız mövsümündə daha təbii yetişdirilmiş meyvə-tərəvəzlər yeyilməsi məsləhətdir. Ona görə də faktiki dövrdə artıq az müddət sonra alça və çiyələyin tam mövsümü olacaq.

Leyla Zülfüqarlı sözlərinə belə davam edib: ”Biz dönə-dönə vurğulayırıq ki, məhz mövsümündə bu giləmeyvələrdən yeyin. Ümumiyyətlə bunların dövrü çox az müddət, maksimum bir ay olur və ən təbii öz dövrüdür. Ona görə də giləmeyvələrin bu dövrdə yeyilməsi çox faydalıdır. Çünki aydın məsələdir ki, biz vitamin və minerallara olan ehtiyacımızı almış oluruq və daha da çox antioksidantlara ehtiyacımızı məhz bu giləmeyvələrlə ödəyirik. Məsələn, xüsusilə çiyələyi vurğulamaq istəyirəm. Çiyələyin eyni zamanda detoks effekti var. Bildiyimiz bütün vitamin və mikroelementlərlə zəngindir. Daha çox likobinə olan ehtiyacımızı ödəyir. Likobin hüceyrələrin yenilənməsində çox mühüm rol oynayan bir maddədir.

Alça da təbii ki, mövsümündə yeyiləcək. Məsələn, düşünün ki, biz indi aprel ayında portağal, mandarin axtaraq ki, ondan vitamin C alaq. Bu nə dərəcədə düzgündür? Alça və çiyələyin indi yeyilməsi məsləhət deyil, onlar parnikdir.

Mövsümdə olmayanda burada biznes maraqları adına çox şarlatanlar həddən artıq sui-istifadə edib baha satırlar. Təbii ki, cibə uyğun deyil. İkincisi də bunlar təbii deyil, parnik meyvəsidir. Onun bizə ötürəcəyi antioksidant deposu da azdır. Bütün bunlardan orqanizmi qorumaq lazımdır. 10-15 gün səbr edib daha təbii və yetişmiş giləmeyvələri qəbul etsinlər”.

***Ayşən Vəli***

## ELAN

**DİN DQ-ın zabiti Vüqar Əhmədovun adına verilən 002953 nömrəli xidməti zabit vəsiqəsi naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**